# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 52 (3290) Cümə / 5-8 iyun 2020-ci il Qiyməti 40 qəpik


## Yoxlama

■ **Dövlət Gömrük Komitəsinin Qərb Ərazi Baş Gömrük İdarəsinin əməkdaşları iki fakt üzrə külli miqdarda siqaretin bəyan edilmədən ölkə ərazisinə keçirilməsi cəhdinin qarşısını alıblar.** Komitənin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən hafta.az-a bildirilib ki, hər iki fakt idarənin "Qırmızı Körpü" gömrük postunda qeydə alınıb. Gömrük baxışı zamanı, Türkiyədən gələn "Iveco" markalı avtomobilin salonunda "Leader" markalı 1800 ədəd, Gürcüstandan gələn "Daf" markalı avtomobilin salonunda isə "Marlboro" markalı 9800 ədəd siqaret aşkarlanıb. Hər iki faktla bağlı araşdırma aparılır.

## Həbs

■ **Bakıda və Biləsuvarda oğurluqla məşğul olan şəxslər yaxalanıblar.** Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, iyunun 2-də Sabunçu rayonu ərazisindəki kafelərin birindən dörd ədəd soyuducu və məişət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri R.Tağıyev və əvvəllər məhkum olunmuş T.Musayev rayon polis idarəsinin 15-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıblar. Oğurluq etdiyinə görə tutulmuş R.Muradovun ətrafında Binəqədi Rayon Polis İdarəsinin 43-cü polis bölməsi əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun rayon ərazisindəki üç evdən 500 manat, iki ədəd velosiped və məişət əşyaları, habelə bir yardımçı təsərrüfatdan dörd qoyun oğurlaması da müəyyənləşdirilib. Biləsuvar Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyunun 2-də rayondakı anbarların birindən beş nəfərə məxsus ümumilikdə 17 min 800 manat dəyərində kosmetik və gigiyenik əşyalar oğurlamaqda şübhəli bilinən Cəlilabad rayon sakini G.Məmmədova, Biləsuvar rayon sakinləri M.Nərimanov və B.Həsənov tutulublar. Faktlarla bağlı təhqiqat aparılır.

## Qarət

■ **Sumqayıtda mənzildən oğurluq olub.** Hafta.az Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadla xəbər verir ki, Şəhər Polis İdarəsinin 1-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyunun 2-də şəhər ərazisindəki mənzillərin birindən 5000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən şəhər sakini M.Məhərrəmova saxlanılıb. Faktla bağlı Sumqayıt polisi araşdırma aparılır.

## Qəza

■ **Qobustanda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.** Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, Qobustan şəhəri ərazisində Çalov kənd sakini G.Günəşovun idarə etdiyi "VAZ-2107" və Şamaxı rayon sakini E.Əliyevin idarə etdiyi "MAN" markalı avtomobillər toqquşub. Nəticədə G.Günəşovun sərnişini, şəhər sakini Şamil İsrafilov hadisə yerində ölüb. Hadisə ilə bağlı Qobustan Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

# Baş nazir Əli Əsədov əhaliyə müraciət edib



***Azərbaycan Respublikasının Baş Naziri, Operativ Qərargahın rəhbəri Əli Əsədov iyunun 4-də ölkəmizdə koronavirusa yoluxma hallarının kəskin artması ilə bağlı əhaliyə müraciət edib.***

Hafta.az müraciəti təqdim edir.

"Hörmətli həmvətənlər!

Məlum olduğu kimi, 2020-ci ilin əvvəlindən başlayaraq dünyada cərəyan edən və fevral ayından Azərbaycana da idxal olunan koronavirus infeksiyasının qarşısının alınması məqsədilə dövlət və hökumət tərəfindən ilk günlərdən təxirəsalınmaz və qətiyyətli tədbirlər görülüb və görülməkdədir. Profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Operativ Qərargah "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanuna uyğun olaraq martın 24-dən aprelin 20-dək Azərbaycanda xüsusi karantin rejimi elan etmişdir, kütləvi tədbirlər ləğv edildi, ölkəmizin quru sərhədləri bağlanıldı, şəhər və rayonlararası gediş-gəliş dayandırıldı. Xəstəliklə mübarizənin gücləndirilməsi məqsədilə xüsusi karantin rejimi mərhələli şəkildə sərtləşdirildi. Bu müddət ərzində epidemiyanın Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə dövlət başçısının tapşırıqlarına uyğun olaraq bütün sahələr və istiqamətlər üzrə lazımi tədbirlər görülüb və görülməkdədir. Atılmış bütün addımların əsas məqsədi vətəndaşlarımızın sağlamlığının və həyatının qorunmasıdır.

### Çağırış

Görülmüş tədbirlər müsbət nəticələr vermişdir və bu, statistik göstəricilərdə də öz əksini tapmışdır. Həkimlərin tövsiyələri və statistik göstəricilərə əsaslanaraq, aprelin 27-dən Operativ Qərargah mərhələli şəkildə yumşaldılma tədbirlərinə başlamışdır. Karantin dövrü ərzində istər həkimlərin, istərsə də digər rəsmi şəxslərin müraciətlərində mütləq olaraq sanitariya-epidemioloji və gigiyenik qaydalara riayət edilməsi əsas tələb kimi qoyulmuşdur. Əhalimizin böyük hissəsi görülmüş işləri yüksək qiymətləndirərək həmrəylik göstərdi və ilkin olaraq həmin tövsiyələrə və tələblərə riayət edirdi. Lakin təəssüflə qeyd etməliyəm ki, son yumşaldılma tədbirləri zamanı vətəndaşlarımızın böyük bir hissəsi müəyyən olunmuş qaydalara və təcrid tövsiyələrinə riayət etmədi.

ardı səh. 2



# Apteklər bağlı olacaq - dərmanları əvvəldən alın

**"Operativ Qərargahın qəbul etdiyi qərar pandemiyanın gedişi ilə bağlıdır". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında TƏBİB İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib.**

R. Bayramlı deyib ki, yeni növ koronavirusun (COVİD-19) dərman və peyvəndi tapılmadığı üçün dünya dövlətləri preventiv tədbirlər görür: "Operativ Qərargahın qərarı ilə bu həftə sonu Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda əhalinin yaşayış yerlərini tərk etməsi qadağan edilir. İnsanlar yalnız təcili tibbi yardıma ehtiyacı olanda təcili yardım maşını ilə, dəfnlə bağlı isə DİN 102 xidmətinə zəng edərək gedə bilərlər".

"Gələcəkdə həftə sonları və bayram günlərində hərəkətin məhdudlaşdırılması nəzərdə tutulur. Ancaq bu barədə hələ qərar verilməyib". Ramin Bayramlı deyib. O qeyd edib ki, tək həftə sonu qapanma xəstəliyin yayılmasının qarşısını almaq üçün yetərli deyil: "Həftə ərzində də insanlar sosial məsafəni gözləməli və tibbi maskadan istifadə etməlidirlər".

"Yumşalma barədə qərara epidemioloji durum imkan verirdi". Ramin Bayramlı bildirib. TƏBİB İdarə Heyətinin sədri qeyd edib ki, Operativ Qərargahın tibbi bölməsi tərəfindən çoxsaylı tibbi-metodik göstərişlər hazırlansa da, bu göstərişlərə əməl edilməyib: "Bu, ikinci dalğa deyil. Hazırda pandemiyanın başlanğıc mərhələsindəyik. Sərt karantin rejimindən çıxan zaman statistik göstəricinin gözləmədiyimiz istiqamətdə getməyinin şahidi oluruq".

ardı səh. 2



# Əminəm ki, biz korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə qalib gələcəyik

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədi rayonunun Hindarx qəsəbəsində fermer təsərrüfatında olub, əkin sahəsində taxıl biçininə başlanması mərasimində iştirak edib.**

Kənd Təsərrüfatı naziri İnam Kərimov dedi: Cənab Prezident, Sizin xeyir-duanızla artıq bu gündən taxıl biçininə başlanılır. Ölkə üzrə bir milyon hektar taxıl sahəsində biçin aparılacaq, onun 370 min hektara yaxını arpa sahəsidir.

Prezident İlham Əliyev: Arpa biçilir?

İnam Kərimov: Bəli. Bir neçə gündən sonra da buğda biçininə başlanılacaq. Bütün texnika biçinə tam hazırdır.

Prezident İlham Əliyev: Məhsuldarlıq nə qədər gözlənilir?

İnam Kərimov: Cənab Prezident, keçən il hektardan məhsuldarlıq 32 sentnerə yaxın idi, bu il hələ dəqiq demək mümkün deyil. Çünki bu il hava quraqlıq keçdi.

Prezident İlham Əliyev: Bu il də quraqlıqdır, keçən il də quraqlıq idi. Amma keçən il biz rekord səviyyədə məhsuldarlığı təmin edə bildik. Azərbaycanda heç vaxt hektardan məhsuldarlıq 32 sentner olmayıb. Özü də iri fermer təsərrüfatlarında təqribən 50 sentnerə çatıb. Təkrar əkinlə bağlı işlər görülür? Mən demişəm, Nazirlər Kabineti vəsait ayırıb.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov: Bəli, cənab Prezident, Siz göstəriş verdiniz, qarğıdalı əkiləcək.

Prezident İlham Əliyev: Orada əsas problem su problemidir. Onu gərək çatdırasınız.

Rafil Hüseynov: Cənab Prezident, biz planlaşdırmışıq ki, su olan yerlərdə bu il iki min hektarda təkrar əkin aparaq.

Prezident İlham Əliyev: Sizdə 2 min hektar, ölkə üzrə 100 min hektara yaxın. Bu, hədəfdir, indi nə qədər olar olar.

Rafil Hüseynov: Su ilə bağlı əsas odur ki, suvarma pambıq becərilməsi ilə üst-üstə düşməsin. Bu il Ağcabədidə təxminən 30 min hektarda taxıl əkilib. Onun da 8 min hektara yaxını arpadır, 22 min hektarı buğdadır.

Prezident İlham Əliyev: Keçən il Ağcabədidə məhsuldarlıq nə qədər idi?

Rafil Hüseynov: Keçən il 35 sentner olub. Bu ildən növbəli əkinə qayıtmaq məsələsini nəzərdə tuturuq. Biz növbəli əkinə qayıtmasaq, məhsuldarlığı da təmin edə bilmərik. Biz razılaşmışıq ki, rayonumuzda eyni sahədə növbəli qaydada həm yonca əkək, çünki maldarlığı da dayandıra bilmərik, həm də pambıq. Çünki yonca sahələrində pambıq əkiləndə çox yaxşı məhsul götürmək olur. Biz pambıq, taxıl, yonca sahələrində növbəli əkin hesabına pambığı da 20 faizə qədər artırmağı nəzərdə tuturuq.

Prezident İlham Əliyev: Məhsuldarlığı?

Rafil Hüseynov: Pambığın özü də, məhsuldarlıq da xeyli artacaq. Bu il yaxşı pambıq var.

Prezident İlham Əliyev: Sizdə məhsuldarlıq keçən il də yaxşı idi.

Rafil Hüseynov: Bu il keçənilkindən daha yaxşı məhsul var.

Prezident İlham Əliyev: Əkin sahələri eyni qalıb?

Rafil Hüseynov: Eyni qalıb, amma gələn il üçün nəzərdə tuturuq ki, pambıq əkinini 25 faiz artıraq. Çünki bu gün bizim taxıl və yonca sahələri 50 min hektara qədərdir. Əlli min hektar bizə cəmi 500 iş yeri verir. Amma 10 min hektar pambıq əkirik, bu, 15 min iş yeridir.

Prezident İlham Əliyev: Əlbəttə, əməktutumlu sahədir. Həm də yaxşı maaş, məvacib götürülür.

Rafil Hüseynov: Bəli, gəlir bundan üç dəfə artıqdır. Həm xalis gəlir, həm də ümumi gəlir artır.

İnam Kərimov: Cənab Prezident, artıq fermerlər maraqlıdırlar ki, pambıq əksinlər və gəlir əldə etsinlər.

Prezident İlham Əliyev: Biz pambığa olan marağı qaytardıq. Keçən il hektardan məhsuldarlığı 29 sentnerə qaldırmışıq. Bu da Azərbaycanın tarixində ən yüksək göstəricilərdən biridir. Sovet vaxtında hektardan məhsuldarlıq bəlkə cəmi 3-4 il təqribən 30 sentnerdən artıq olub. İndi biz demək olar ki, 30 sentnerə yaxınlaşmışıq. Bu il də məhsuldarlıq daha yaxşı olsa, onda əlbəttə ki, fermerlər və işləyənlər daha da böyük gəlir götürəcəklər.

Rafil Hüseynov: Cənab Prezident, keçənilkinə nisbətən indi sıxlıq yüksəkdir, təxminən 100 faiz bitiş alınıb. Ona görə bu il pambıqda xeyli yaxşı nəticə gözlənilir.

Prezident İlham Əliyev: Bir də ki, təkrar əkinlə bağlı bizim yem bazası da genişlənəcək. Hesablamısınız qarğıdalıdan nə qədər yem əldə edəcəyik? İdxaldan asılılıq nə qədər azalacaq?

İnam Kərimov: Təxminən 1,2 milyon ton silos üçün yaşıl yem, 350 min ton qarğıdalı olacaq.

Prezident İlham Əliyev: Yəni, xaricə pul az gedəcək.

İnam Kərimov: Bəli, az gedəcək.

Rafil Hüseynov: Elektron uçotun qurulması çox böyük kömək etdi. Artıq biz uçotu bildik. Biz indi də başlamışıq rayon üzrə ev təsərrüfatlarının uçotunu qurmağa ki, onların nə qədər sahəsi var, orada nə dəyişiklik baş verir.

Prezident İlham Əliyev: Fermerlər də öz işlərini bilirlər.

İnam Kərimov: Cənab Prezident, xeyir-dua versəniz biçinə başlayardıq.

Prezident İlham Əliyev: Başlamaq olar?



İnam Kərimov: Bəli, Sizin xeyir-duanızla.

Prezident İlham Əliyev: Başlayın.

Sonra fermer Nizami Hüseynovun əkin sahəsində taxıl biçininə başlanıldı.

İyunun 3-də Ağcabədi rayonunda dənli bitki toxumlarının emalı müəssisəsi istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müəssisənin açılışında iştirak edib.

Dövlətimizin başçısına məlumat verildi ki, müəssisənin emal gücü saatda 5 tondur. Quraşdırılan qurğular vasitəsilə emal olunan toxum materialını 98 faiz təmizləmək mümkündür. Bu toxumların əkin sərfiyyatı digər qurğularda təmizlənənlərdən 20-30 faiz azdır. Bu da əkinə sərf edilən toxumun həcminin azalmasına imkan verir, həm də fermerin məhsul istehsalında çəkdiyi xərcləri də əsaslı şəkildə azaldır. Müəssisədə quraşdırılmış 3 min tonluq silo qurğularının əsas funksiyası təqdim olunan toxum materialını qəbul edərək emal xəttinə davamlı ötürülməsi və həmin qurğularda saxlanılan toxumun digər ərazilərə daşınması üçün avtomobillərə asanlıqla yüklənilməsini təmin etməkdir. Mövsüm başa çatdıqdan sonra dövlət ehtiyacı üçün tədarük olunmuş toxumun ehtiyatı bu qurğularda təhlükəsiz saxlanılacaq.

ardı səh. 3

"HƏFTƏ İÇİ"ndən



### Koronavirusa yoluxmanın çox olduğu Lənkəranda son durum

Yaxınlaşıb soruşduq. Görəsən, təhlükədən qorxurmu, maskadan niyə istifadə etmir?

bax səh. 7



### İqlim dəyişmələri ilə bağlı portal yaradılır

Mərkəzi Asiya ölkələrini əhatə edən bu resursun yaradılmasında məqsəd iqlim dəyişmələrinə qarşı birgə mübarizə aparmaqdır

bax səh. 6

# Sərəncam



**Prezident İlham Əliyev Ağcabədi rayonunun Sarıcalı kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.** Sərəncama əsasən, Ağcabədi rayonunun Sarıcalı kəndində 360 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılıb.

***

**Prezident İlham Əliyev Ağcabədi rayonunun Mingəçevir-Stansiya Mingəçevir-Bəhramtəpə (109 km)-Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamla on dörd min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Mingəçevir-Stansiya Mingəçevir-Bəhramtəpə (109 km)-Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılıb.

# Parlament sədrindən vətəndaşlara çağırış



**Milli Məclisin Sədri Sahibə Qafarova həftə sonu sərt karantin rejiminin tətbiq olunması ilə bağlı vətəndaşlara müraciət edib.**

Hafta.az-ın məlumatına görə, müraciətdə deyilir:

"Əziz və hörmətli həmvətənlərim!

Bütün dünyada olduğu kimi, ölkəmizdə də koronavirusa və bu virusun millətimizin hər bir fərdi üçün yaratdığı hədələrə qarşı hərtərəfli mübarizə aparılır. 2020-ci fevral ayından başlayaraq ölkəmizdə görülməyə başlanan koronavirus infeksiyasının qarşısının alınması məqsədilə dövlətin bütün gərəkli qurumları səfərbər olmuşdur. Cənab Prezident bu virusun ölkəmizə verə biləcəyi zərəri minimuma endirmək üçün ciddi siyasi iradə ortaya qoymuş və effektiv tənzimləmə mexanizminin formalaşdırılması üçün müvafiq göstərişlər vermişdir.

Görülmüş tədbirlər müsbət nəticələr versə də, aprelin 27-dən xüsusi karantinin rejiminin mərhələli şəkildə yumşaldılması və təəssüflər olsun ki, müəyyən olunmuş qaydalara və təcrid tövsiyələrinə riayət edilməməsi son günlər infeksiyaya yoluxanların sayının kəskin artması ilə nəticələnmişdir. Buna görə də Operativ Qərargahın qərarı ilə 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək aktiv yoluxma hallarındakı artım səbəbindən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda sərt karantin rejimi tətbiq olunacaq.

Qərarda göstərilən tələblərə riayət edilməsinin mütləq olmasını nəzərə alaraq, hər bir həmvətənimdən bir ana, bir azərbaycanlı və Milli Məclisin Sədri olaraq xahiş edirəm: millətimizin bu bəladan ən qısa müddətdə xilas olması üçün üzərinizə düşən mühüm missiyanı yerinə yetirin – qoyulmuş tələblərə və verilmiş tövsiyələrə riayət edin, özünüzü, ailə fərdlərinizi və yaxınlarınızı, həmçinin ətrafınızda olan insanları düşünün və bu bəlanın daha geniş vüsət almasına imkan yaratmayın".

# Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında kardinal irəliləyiş yoxdur



**"Rusiya həlli gecikən Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla həllinin tərəfdarıdır".**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi ənənəvi brifinqdə deyib.

"Bu ölkələrlə uzun dostluq, əməkdaşlıq tarixi əlaqələri olan qonşu ölkə kimi, həm də Minsk Qrupunun həmsədr dövləti kimi mümkün olanı edirik ki, bu münaqişənin həllinə konstruktiv töhfə verək", - deyə Rusiya XİN rəsmisi vurğulayıb. O qeyd edib ki, münaqişənin nizamlanmasında kardinal irəliləyiş yoxdur: "Lakin təsdiq edə bilərəm ki, nikbinlik qalır".

HƏFTƏ İÇİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2505
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Apteklər bağlı olacaq - dərmanları əvvəldən alın

◂ əvvəli 1-ci səhifədə

R. Bayramlı nəzərə çatdırıb ki, həftənin cümə günü dövlət qurumlarında qısaldılmış iş günü tətbiq olunacaq: "Cümə günü dövlət müəssisələri saat 2-ə kimi işləyəcək. Ancaq insanlar bunu bayram etməsinlər. Bu, insanların restoranlara, əyləncə mərkəzlərinə axın etməsi üçün deyil, onlar ərzaq ehtiyaclarını təmin etsinlər. Özəl müəssisələrə də iş saatlarını saat 14.00-a qədər bitirməyi tövsiyə edirik".



"Bakı şəhərində xüsusi rejimli xəstəxanaların üzərinə böyük yük düşür". Ramin Bayramlı deyib. O qeyd edib ki, ictimai nəqliyyatda tibbi maskalardan istifadə edilməməsi, metroda yaşanan arzuolunmaz görüntülər, insanları tibbi maska taxmağa dəvət edən polislərə qarşı qeyri-adekvat hərəkətlərə yol verilməsi qəbuledilməzdir: "Hətta bəzi vətəndaşlar polisə qarşı bu hərəkəti qələbə kimi qiymətləndirirlər. Ancaq bu, virusun qələbəsi kimi qiymətləndirilə bilər. Buna yol verən insanlar cəzalandırılib və cəzalandırılmağa davam ediləcək".

"Xəbər saytlarının evdən işləməsi mümkündür". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, fəaliyyətinə icazə verilən televiziya və radio qurumlarının məhdud sayda işçi cəlb etməsi məqsədəuyğundur: "Televiziyalara tövsiyə edilib ki, müsahibələr onlayn qaydada götürülsün. Zəruri halda isə televiziyalar Operativ Qərargaha müraciət etməlidirlər. Fəaliyyətinə icazə verilən televiziya və radio qurumlarına bu barədə məlumat verilib". Apteklərin bağlanması ilə bağlı bu günlərdə vətəndaşlar zəruri dərman ləvazimatlarını əvvəldən ala bilərlər". Ramin Bayramlı bildirib.

Onun sözlərinə görə, ancaq təcili hallar olarsa, bununla bağlı təcili tibbi yardım briqadaları vasitəsilə həmin şəxslərə xidmət göstəriləcək.

"Üzunmüddətli qapanmalar iqtisadi baxımdan mənfi nəticələrə səbəb olur. Ona görə də qısamüddətli qapanmalar barədə qərar verilib". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, qapanma insanların sağlamlığının qorunması üçün effektli olsa da, iqtisadi baxımdan müəyyən çətinliklərin yaranmasına səbəb olur: "Həftə sonu işinə icazə verilən dövlət qurumlarına da Nazirlər Kabineti tərəfindən siyahı göndərilib. Xidməti avtomobillərdən yalnız işləməyə icazə verilən şəxslər istifadə edə bilərlər".

TƏBİB İdarə Heyətinin sədri qeyd edib ki, insanlar bu günlərdə zəruri dərman ehtiyaclarını təmin etməlidirlər: "Təcili hallar çıxarsa, insanlara təcili yardımla lazımi yardım ediləcək". R. Bayramlı nəzərə çatdırıb ki, ölkədə gündəlik 150-170 şəxs vəfat edir: "Bu statistikaya uyğun olaraq yaxın dəfndə iştirak edə biləcək insanların sayı bilinir. 102 xidmətinə zəng etməklə insanlar dəfndə iştirak edə biləcəklər. Əvvəllər SMS-lə dəfndə iştirakla bağlı 40-50 min müraciət edilirdi. Bu, sui-istifadə halları idi. 102 xidmətinə yersiz zəng edənlər müvafiq qaydada cəzalandırılacaq".

"190 manat birdəfəlik ödəmə gündəmdə deyil". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, həftənin iş günlərində artıq insanlar çalışa bilir: "Ən çox verilən suallardan biri 190 manatlıq sosial ödəmə ilə bağlıdır. Bu qərar iş yerlərinin uzunmüddətli bağlanmasına görə qəbul edilmişdi. Hazırda bütün iş yerləri fəaliyyəti göstərir. Ona görə də 190 manat ödəmənin verilməsi gündəmdə deyil. Məhdudiyyət yalnız həftə sonlarını əhatə edir, iş günlərini deyil".

"Tibbi maskaların tədarükü ilə bağlı ölkəmizdə hər hansı problem yoxdur". Ramin Bayramlı deyib. O qeyd edib ki, xarici dövlətlər tərəfindən Azərbaycandan tibbi maskaların alınması ilə bağlı sifarişlər olur: "Biz insanlara sadə tibbi maskalardan istifadə etməyi tövsiyə edirik. İnsanlar evdə qaydalara uyğun olaraq maska hazırlayıb istifadə edə bilərlər". "Təəssüflər olsun ki, əldə olunan uğurlar bizdə müəyyən rahatlığa səbəb oldu". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, inamsızlıq yaradan hallara qətiyyən yol vermək olmaz: "Biz ilk gündən şəffaf şəkildə bütün məlumatları ictimaiyyətlə paylaşırıq. Tibb müəssisələrimiz lazımi təchizat və kadr resursları ilə təmin olunub. Qarşıdakı həftə bir neçə modul xəstəxana da istifadəyə veriləcək. Prezidentin diqqət və qayğısı sayəsində müayinə və müalicə sahəsində heç bir problem yoxdur. Biz sadəcə, ilk mərhələdə olduğu kimi, həmrəylik etsək, irəlidəki günlərdə həftə sonlarında qapanmaların da şahidi olmaya bilərik. Əgər statistik göstəricilər gələcəkdə də mənfi istiqamətdə inkişaf etsə, uzunmüddətli qapanmalara da gedə bilərik. Biz bunu istəmirik".

"Tibbi maskalardan düzgün istfiadə edilməməsi bizi də narahat edir". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, sosial şəbəkələrdə bəzi şayiələr yayılır: "Guya hər hansı ölmüş şəxsin COVİD-19-dan öldüyünü yazmaq barədə onun yaxınlarına təcili tibbi yardım xidmətindən təklif verilir. Bu, tamamilə əsassızdır, müvafiq qurumlar tərəfindən araşdırılıb. COVİD-19 diaqnozunun qoyulması üçün müvafiq elektron sistem var, bura müdaxilə mümkün deyil ".

"Polislər günün altında dayananda da maskadan istifadə edirlər". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, vətəndaşların qaydalara riayət etməsi üçün tələblər müəyyənləşib: "Müvafiq nəzarət mexanizmləri də işlənib. Polis və digər strukturlar buna ciddi nəzarət edəcəklər. Ancaq Operativ Qərargah olaraq sərt addımları deyil, insanların qaydalara əməl etməsini istəyirik".

"Xüsusi rejimli xəstəxanalar üçün 5 min, modul tipli xəstəxanalar üçün isə 2 min yataq nəzərdə tutulur". Ramin Bayramlı deyib.

O qeyd edib ki, bu gün ölkədə 2700 civarında aktiv koronavirus xəstəsi var: "Xəstələrin böyük əksəriyyəti Bakıdadır. Ona görə də bu ərazidəki xəstələrin üzərinə düşən yük artır. Hazırda resurslarımız kifayət qədərdir. Sadəcə epidemioloji gedişat bizi narahat edir". "Daxili uçuşların yaxın günlərdə bərpa olunması gündəmdədir". Ramin Bayramlı bildirib. Onun sözlərinə görə, hava nəqliyyatında uçuşları tənzimləyən metodiki göstərişlər tərəfdən hazırlanıb təqdim olunub və təsdiqlənib: "Təbii ki, bu, Operativ Qərargahla, o cümlədən hava nəqliyyatı sahəsindəki qurumlarla birlikdə hazırlanıb. Burada istər hava gəmisinin içərisində xüsusi yoxlama rejiminin tətbiqi, sərnişinlərin say məhdudiyyəti, o cümlədən daxili uçuşlar zamanı gəliş və gedişlərdə - xüsusilə Gəncə və Naxçıvan nəzərdə tutulur - laborator analizlərin keçirilməsi ilə bağlı məsələlər var. Burada bəzi müzakirə tamamlanmamış məqamlar qalmaqdadır. Bunlar da tamamlanmaq üzrədir. Yəqin ki, bu barədə çox qısa müddət ərzində məlumat veriləcək".

"Abituriyentlərin həyatında qəbul imtahanı xüsusi mərhələdir". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, hansı xəstəlik səbəbindən abituriyent özünü yaxşı hiss etmirsə, imtahana qatılması doğru deyil: "Ancaq Dövlət İmtahan Mərkəzi bu halda sonradan hansı qərar qəbul edəcək, bilmirik. Biz bütün hallarda müzakirələrə hazırıq".

TƏBİB İdarə Heyətinin sədri qeyd edib ki, bəzi dövlətlər 18 yaşdan aşağı uşaqların küçəyə çıxmasına qadağa qoyurdu: "Çunki kiçik yaşlı uşaqlar xəstəliyi daha çox asimptomatik, hiss olunmayan səviyyədə keçirirlər. Azyaşlıların virusu evdəki yaşlılara yoluxdurması daha asan olur. Böyükləri də xəstəlikdən qorumaq üçün müvafiq qaydalara riayət etməliyik".

"Beynəlxalq uçuşlarla bağlı bir sıra xarici hava nəqliyyatı qurumları öz məlumatlarını veriblər". Ramin Bayramlı bildirib. Onun sözlərinə görə, ölkəmizdə bu istiqamətdə müzakirələr əvvəldən də anons edildiyi kimi, hələ davam etdirilir: "Bir sıra qaydaların qəbul olunması məsələsinə baxılır. Güman edirik ki, biz bu məsələni 1 iyula qədər gecikdirə bilərik". "Çarpayı sayımız kifayət qədərdir, modul xəstəxanalar da açılır. Ona görə də məktəblərdən xəstəxana kimi istifadə edilməsinə heç bir ehtiyac yoxdur". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, xəstəxanalar süni nəfəs aparatları ilə tam təchiz olunub.

"İş yerlərinin böyük əksəriyyəti açılıb". Ramin Bayramlı deyib. R. Bayramlı bildirib ki, digər yerlərdə çalışan insanlar da karantin rejimi yumşaldığı üçün fərqli yerlərdə iş tapa bilərlər: "Diplomatik korpusa gəlincə, onlara fəaliyyətlərini həftə sonu məhdudlaşdırmağı tövsiyə edə bilərik. Şənbə və bazar günü çalışan səfirliklər və konsulluqların əməkdaşları işə çıxa biləcəklər. Tövsiyəmiz isə iş fəaliyyətinin məhdudlaşdırılmasıdır". Azərbaycanda seroloji testlərin aparılması Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi və xüsusi proqramı ilə planlaşdırılır. Bunu isə TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva bildirib. Onun sözlərinə görə, çox qısa müddətdə xüsusən əhali arasında COVİD-19 xəstəliyinə qarşı inkişaf etmiş immunitetin yoxlanılması üçün aparılacaq işlər gözlənilir: "Bizi xüsusən mart ayından sonrakı dönəmdə xəstəliyə yoluxmuş və sağalmış vətəndaşlarda inkişaf etmiş immunitet çox ciddi şəkildə maraqlandırır. Eyni zamanda belə bir elmi araşdırmalar aparılır ki, ölkə ərazisində noyabr-dekabr aylarında da bu xəstəliyə yoluxan və keçirən olubmu? ÜST-ün dəstəyi ilə tez müddətdə bu cür seroloji araşdırma aparılacaq".

Dünyada bu günə 6 milyondan çox koronavirusa yoluxma, 380 min ölüm qeydə alınıb. Bunu isə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancı bildirib.

Onun sözlərinə görə, Avropada 2 milyondan yoluxma, 180 mindən çox ölüm qeydə alınıb. H. Harmancı deyib ki, son günlər Avropada virusa yoluxmada azalma müşahidə olunur.

"Bugünkü karantinin nəticəsi 10-14 gün sonra ortaya çıxacaq". Hande Harmancı deyib. O bildirib ki, apreldən 27-dən ölkə karantin rejiminin yumşaldılmasına başlanılıb: "27 apreldən 12 gün sonra 25 civarında olan yoluxma 100-ə çıxdı. Bu gün isə artıq 200-dən çox yoluxma var. Yoluxmalar artan zaman dövlətlər yenidən sərt tədbirlər görmək məcburiyyətində qalırlar. Azərbaycanda da bu addımları atırlar. Ölkələr məhdudiyyətləri aradan qaldırdıqda yoluxmalar da artır". H. Harmancı qeyd edib ki, dünya virusla mübarizənin birinci mərhələsindədir.

"Bu virus uzun müddət, ən azı peyvənd hazırlanana, səmərəli müalicə ortaya çıxana qədər bizimlə olacaq". Hande Harmancı bildirib.

ÜST Azərbaycan nümayəndəliyinin rəhbəri deyib ki, koronavirusla bağlı peyvənd hazırlanandan sonra ÜST peyvəndin hər kəs üçün əlçatan olmasına çalışacaq: "O dövrə qədər isə insanlarımız məsuliyyətli, ehtiyatlı olmalıdırlar.

Artıq virusun mahiyyətini daha yaxşı bilirik. Epidemiyanın real vaxt rejimində monitorinqi çox vacibdir. Bütün şübhəli halları aşkar, test etmək, karantinə almaq çox vacibdir". "Həftə sonu, uzun müddət qapanan ölkələrdə bunun nəticələri ilə bağlı Ümumdünya Səhiyyə Təşkilatı təhlillər aparır". Hande Harmancı bildirib.

ÜST Azərbaycan nümayəndəliyinin rəhbəri deyib ki, həftədə 2 gün məhdudiyyət gətirilməsi heç gətirilməməsindən yaxşıdır: "Azərbaycan bu barədə ÜST-ə məlumat verib".

# Baş nazir Əli Əsədov əhaliyə müraciət edib

◂ əvvəli 1-ci səhifədə

Bunun nəticəsi olaraq son günlər infeksiyaya yoluxanların sayı kəskin artmışdır. Bunlara əsaslanaraq və tibbi qərargahın müraciəti ilə Operativ Qərargah bu gün qərar qəbul edib. Qərara əsasən 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək aktiv yoluxma hallarındakı artım səbəbindən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda sərt karantin rejimi tətbiq olunacaq. Qərarda göstərilən tələblərə riayət olunması məcburidir və mütləqdir.

Xəstəliyin yoluxma halları digər şəhər və bölgələrdə artacağı hallarda sərt tədbirlər gələcəkdə həmin bölgələrdə də təkrarən tətbiq olunacaqdır.

Qərarın icra olunmasına nəzarət Daxili İşlər Nazirliyinə həvalə olunmuşdur. Sonda bir daha bildirmək istəyirəm ki, görülən bütün tədbirlərin ali məqsədi vətəndaşlarımızın sağlamlığının və həyatının qorunmasıdır".

Hazırda dünyada 7 milyonadək insan yeni növ koronavirus (COVID-19) xəstəliyinə yoluxmuş, 400 minədək şəxs vəfat etmişdir. COVID-19 virusunun peyvəndi bu günədək tapılmadığından dünya dövlətləri tərəfindən davamlı preventiv tədbirlər həyata keçirilməkdədir. Son günlər mövcud karantin rejimi qaydalarının əhali tərəfindən kütləvi surətdə pozulması ölkənin bir sıra bölgələrində sanitar-epidemioloji vəziyyətə ciddi təsir göstərmiş, virusa yoluxanların sayı artıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a bildiriblər ki, COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə xüsusi karantin rejiminin müəyyən günlərdə sərtləşdirilməsi qərara alınıb.

Bununla əlaqədar olaraq, 2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda, ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırılacaq (xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım avtomobillərinin və fəaliyyətinə icazə verilən orqanların (qurumların) və təşkilatların xidməti avtomobillərinin hərəkəti istisna olmaqla).

Qeyd olunan tarixdə Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilir. Sakinlər yaşayış yerlərini və ya olduğu yerləri həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandığı halda, eləcə də təxirəsalınmaz tibbi yardıma ehtiyac olduqda yalnız təcili tibbi yardım xidməti vasitəsilə, habelə yaxın qohumların dəfnində iştirak etmək üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə icazə almaqla tərk edə bilər.

2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək yalnız aşağıdakı qurum və xidmətlərin fəaliyyətinə icazə verilir:

- Siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilən dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların fəaliyyəti;
- xəstəxanalar, təcili tibbi yardım müəssisələrinin fəaliyyəti;
- sosial xidmət müəssisələrinin fəaliyyəti, o cümlədən əqli və hissiyyat pozuntusu olan, habelə xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün baxıcılıq xidməti;
- kommunal xidmətlər (su təchizatı və kanalizasiya, qaz təchizatı, istilik təchizatı, enerji paylanması, məişət tullantılarının yığılması və utilizasiyası);
- elektrik enerjisinin istehsalı və təchizatı;
- meliorasiya və su təsərrüfatı;
- rabitə xidmətləri;
- teleradio yayımçılarının (televiziya və radio kanalları, kabel televiziyaları) fəaliyyəti;
- dəmir yolu, avtomobil, dəniz, hava nəqliyyatı ilə yük daşımaları;
- boru kəmərləri ilə nəqliyyatın təmin edilməsi fəaliyyəti;
- fasiləsiz istehsalat fəaliyyəti (istehsalat-texniki şərtlərə görə fəaliyyətinin dayandırılması mümkün olmayan müəssisələr);
- neft və qazın hasilatı, emalı, saxlanması və satışı;
- fəaliyyəti dayandırılmış iş və xidmət sahələrinin mühafizə və texniki təhlükəsizliyinin təmin edilməsi üzrə xidmətlər.

Fəaliyyətinə icazə verilən iş və xidmət sahələrində işləyən şəxslərin və xidməti avtomobillərin hərəkətinə işəgötürən tərəfindən həmin şəxslər barədə məlumatlar elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yol veriləcək. Eyni zamanda, dövlət əhəmiyyətli, həyat təminatlı müəssisələrin və qurumların, həmçinin fasiləsiz işləyən qurumların fəaliyyətləri zəruri hesab edilən işçilərini məhdud sayda cəlb etməklə tənzimlənəcəkdir.

2020-ci il 5 iyun tarixində Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində dövlət orqanları və qurumları üçün saat 14:00-dək qısaldılmış iş rejimi müəyyən edilib.

Xüsusi karantin rejiminin tələblərinin pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati və cinayət məsuliyyəti daşıyır.

Bir daha vətəndaşlarımızı COVID-19 virusu ilə mübarizədə sosial məsuliyyətdən irəli gələrək həmrəylik nümayiş etdirməyə, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və qaydalarına əməl etməyə, özlərinin və yaxınlarının sağlamlığını qorumağa çağırırıq.

# Əminəm ki, biz korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə qalib gələcəyik

◂ əvvəli 1-ci səhifədə

Müəssisədə 25 nəfər işlə təmin olunacaq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədidə "ASAN Həyat" kompleksinin açılışında iştirak edib.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəz barədə dövlətimizin başçısına məlumat verdilər.

Bildirildi ki, Ağcabədi "ASAN Həyat" kompleksinin tikintisinə 2018-ci ilin aprel ayında başlanılıb və 2019-cu ilin noyabr ayında işlər başa çatdırılıb. Kompleksin ümumi sahəsi 7290 kvadratmetrdir.

Prezident İlham Əliyev "ASAN Həyat" kompleksini işə saldı.

Daha sonra Prezident İlham Əliyevə innovativ yeniliklər barədə məlumat verildi. Qeyd olundu ki, "ASAN İnnoland" pandemiya ilə əlaqədar bir sıra yeniliklərə imza atıb, onlardan biri də istehsalçısı milli startaplar olan süni nəfəs aparatıdır.

Prezident İlham Əliyev: Bu, sınaqdan keçib?

Ülvi Mehdiyev: TƏBİB müayinədən keçirib, müsbət rəy yazıb, o rəyə uyğun da baxacağıq. Bu isə gündəlik istifadə edilən əşyaların dezinfeksiyası üçündür. Bu, eskalatorlar üçün hazırlanıb, fırlandıqca ultrabənövşəyi şüalarla dezinfeksiya olunur. Bu isə temperaturu müəyyən edir, virusu yandırır, onu içəri keçməyə qoymur. Bu isə üz maskasıdır, bizdə istehsal olunur. DOST mərkəzlərinə paylamışıq, əməkdaşlar xidmət zamanı istifadə edirlər.

Sonra dövlətimizin başçısına smart aptek aparatı barədə məlumat verildi. Bildirildi ki, bu aparat vasitəsilə vətəndaşlar onlara lazım olan dərmanları seçə, dərmanın qiyməti, təyinatı barədə məlumat ala və ödəniş edib preparatı götürə bilər.

Ülvi Mehdiyev: Vətəndaş pulu daxil edir, kağız pul da alır, qəpik də. Seçdiyimiz dərmanı iyirmi saniyə ərzində içəridə tapır və təqdim edir.

Prezident İlham Əliyev: İndiki şəraitdə bunun xüsusi əhəmiyyəti var.

Ülvi Mehdiyev: Sizin tapşırığınızla müəyyən pulsuz dərmanlar verilir. O adamlar həmin dərmanı almaq üçün mütləq tibb müəssisəsinə getməlidir. Amma bu smart apteklər hər yerdə quraşdırıla bilir.

Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev ASAN könüllüləri ilə görüşdü. Dövlətimizin başçısı görüşdə çıxış etdi:

- Bu gün növbəti "ASAN Həyat" Mərkəzinin açılışını edirik. Bu münasibətlə sizi təbrik edirəm. Mənim göstərişimlə Ağcabədi rayonunda müasir, gözəl "ASAN Həyat" Mərkəzi yaradılıb və bu gün istifadəyə verilir. Mərkəzlə tanışlıq çox xoş təəssürat bağışlayır. Həm xarici görünüşü, həm də daxili dizaynı, tərtibatı çox gözəldir. Ən önəmlisi odur ki, burada vətəndaşlara 320 xidmət göstəriləcək. Bu bölgədə yaşayan səkkiz yüz min insan bu imkanlardan istifadə edə bilər.



Növbəti "ASAN xidmət" mərkəzinin açılışı çox əlamətdar hadisədir. Çünki biz qısa müddət ərzində "ASAN xidmət" mərkəzlərinin sayını 19-a çatdırdıq və bu proses davam etdiriləcək. Hazırda səkkiz mərkəzin tikintisi nəzərdə tutulur. Onlardan bəziləri demək olar ki, hazırdır, bəzilərində isə işlər davam etdirilir. Beləliklə, biz bütün ölkəmizi "ASAN xidmət" mərkəzləri ilə əhatə edəcəyik. Əslində, bizim planlarımız da bundan ibarət idi. Biz bu təşəbbüsü irəli sürəndə mənim qəti fikrim ondan ibarət idi ki, əgər bu təcrübə müsbət olarsa, - mən buna şübhə etmirdim, - bütün ölkə üzrə "ASAN xidmət" mərkəzləri yaradılmalıdır və bütün vətəndaşlara keyfiyyətli xidmət göstərilməlidir. Biz bu işi ardıcıllıqla görürük. Bu gün bu mərkəzin işinə start verərkən gördüm ki, "ASAN xidmət"in fəaliyyətə başladığı dövrdən indiyə qədər təxminən 38 milyon müraciət olmuşdur. "ASAN xidmət"in fəaliyyətini ən gözəl əks etdirən fakt odur ki, vətəndaşların bəyənmə dərəcəsi 99,4 faizdir. Demək olar ki, 100 faiz vətəndaşlarımız "ASAN xidmət" mərkəzlərindən məmnundurlar. Bu da təbiidir. Əslində bizim niyyətimiz də, istəyimiz də insanlar üçün çox gözəl, rahat və şəffaf xidmət yaratmaqdır. Biz buna nail ola bildik.

Bu gün "ASAN xidmət" ölkəmizin intellektual məhsuludur. Mən bir dəfə demişəm, bir daha demək istəyirəm ki, biz artıq bu intellektual məhsulu ixrac edirik. Bir neçə ölkə ilə bizim "ASAN xidmət" mərkəzlərinin o ölkələrdə yaradılması ilə əlaqədar müqavilələr imzalanıb. Bəzi ölkələrdə artıq "ASAN xidmət" mərkəzləri fəaliyyətə başlayıb. Bu, bizim milli brendimizdir. "ASAN xidmət"in fəaliyyətə başlaması və uğurla fəaliyyət göstərməsi bu sahədə aparılan siyasətin çox gözəl nəticəsidir. "ASAN xidmət" innovasiyadır və hər bir yeni mərkəzin açılışında mənə yeni innovativ layihələr təqdim olunur, o cümlədən bu gün. Sonra isə bu layihələrin böyük əksəriyyəti həyatda öz əksini tapır.

"ASAN xidmət"in fəaliyyəti Azərbaycanda innovasiyaların inkişafına da çox böyük təkan vermişdir. Şadam ki, bu innovasiyaları təqdim edən, onları icad edən gənclərdir. Beləliklə, qısa müddət ərzində ölkəmizin ictimai xidmətlər sahəsində inqilabi dəyişikliklər baş verdi. Bəlkə on il bundan əvvəl heç kim təsəvvür edə bilməzdi ki, bir mərkəzdə 320 xidmət göstərilə bilər. Bu xidmətlərin yüksək innovativ əmsalı var. Eyni zamanda, bu mərkəzlərdə şəffaflığın dərəcəsi mütləqdir. Yəni, "ASAN xidmət"in əsas xüsusiyyətlərindən biri də odur ki, insanları ictimai xidmətlər sahəsində rüşvətxorluqdan, korrupsiyadan qoruya bildi. İctimai xidmətlər demək olar ki, ən korrupsiyalaşmış sahələrdən biri idi. İnsanlar onlara qanun çərçivəsində təqdim ediləcək bir arayış üçün həftələrlə, bəzən aylarla qapı-qapı gəzirdilər, məmurlardan xahiş edirdilər, bir çox hallarda onlara lazım olan sənədləri rüşvət müqabilində alırdılar. Amma artıq neçə ildir ki, bu praktika Azərbaycanda tamamilə aradan qaldırılıb. Bu, bir də onu göstərir ki, harada güclü iradə var, düşünülmüş siyasət var və icraedici mexanizmlər təkmilləşib, orada həmişə nəticə də olacaq.

Bildiyiniz kimi, "ASAN xidmət" mənim təşəbbüsümlə yaradılmışdır və mənim göstərişlərim əsasında öz fəaliyyətini genişləndirmişdir. Ancaq "ASAN xidmət"i yaradan sizsiniz, gənclərdir - "ASAN xidmət"in rəhbərləri, kadrları, işçiləri. Bu gün biz elə bir mükəmməl sistem yaratmışıq ki, haqlı olaraq bununla fəxr edə bilərik. İnsanların rahatlığını, ədaləti, şəffaflığı təmin etdik. Ona görə "ASAN xidmət", sadəcə olaraq, bir xidmət mərkəzi deyil, tamamilə yeni bir təfəkkürün ortaya qoyulması, ictimai münasibətlərdə tamamilə yeni fəlsəfənin tətbiq edilməsidir. Ölkəmizin müasir inkişafı ilə tam uzlaşan bir təşəbbüsdür, böyük bir layihədir. Bunun çox böyük ictimai mənası var. Əlbəttə ki, burada işləyən insanlar, öz xidmətləri, öz işləri ilə "ASAN xidmət"i bu yüksək səviyyəyə qaldırdılar. Çünki hətta ən yaxşı bir layihə, ən yaxşı bir təşəbbüs əgər düzgün icra edilmirsə, onun səmərəsi olmur.

Mən çox şadam ki, "ASAN xidmət" mərkəzlərində işləyənlərin mütləq əksəriyyəti, demək olar ki, hamısı gənclərdir, o cümlədən könüllülər bütün mərkəzlərdə fəaliyyət göstərirlər. Mənə verilən məlumata görə, Ağcabədi "ASAN xidmət" mərkəzində 200-dən çox işçi və 45 könüllü fəaliyyət göstərəcək. Əslində, Azərbaycanda könüllülər hərəkatı "ASAN xidmət"dən başlamışdır. O vaxta qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. "ASAN xidmət"dən sonra digər sahələrdə də könüllülər fəaliyyətə başladılar. O cümlədən ölkəmizdə keçirilmiş böyük beynəlxalq idman yarışlarında - Avropa və İslam Həmrəyliyi oyunlarında könüllülər böyük xidmət göstərmişlər. Könüllülərsiz biz bu böyük yarışları keçirə bilməzdik. Bu gün mənim göstərişimlə digər sahələrdə də könüllülər fəaliyyət göstərir. Mən göstəriş vermişəm ki, dövlət təşkilatlarında, nazirliklərdə, dövlət şirkətlərində könüllülər işə cəlb edilsin, onlar təcrübə keçsinlər. Çünki bugünkü könüllülər sabahın rəhbərləridir. Təsadüfi deyil ki, mənim Sərəncamımla bu il "Könüllülər ili" elan edilmişdir. Bu, bir daha bizim könüllülərin fəaliyyətinə göstərdiyimiz diqqəti və münasibəti əks etdirir.



Beləliklə, gənclər "ASAN Həyat", "ASAN xidmət" mərkəzlərində fəaliyyətləri ilə Vətənə çox böyük xidmət göstərmiş olurlar. Əlbəttə ki, burada peşəkarlıq da yüksək səviyyədədir. Ümumiyyətlə, qeyd etdiyim kimi, ictimai münasibətlərin tamamilə yeni forması Azərbaycanda tətbiq olunur. Çünki əvvəlki dövrdə ictimai xidmətlər sahəsində korrupsiyadan, rüşvətxorluqdan başqa, deyə bilərəm ki, kobudluq, laqeydlik də adi bir hala çevrilmişdir. Amma "ASAN xidmət" mərkəzlərində buraya gələn hər bir vətəndaşa hörmət göstərilir, onların problemləri operativ qaydada, şəffaf şəkildə həll olunur. Ona görə biz haqlı olaraq fəxr edə bilərik ki, "ASAN xidmət" Azərbaycanın milli brendidir. Təsadüfi deyil ki, BMT "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini yüksək qiymətləndirib, xüsusi mükafat təqdim edib. Əlbəttə ki, bu xidmətin beynəlxalq müstəvidə tanıdılması ölkəmiz haqqında düzgün təsəvvürün yaranmasında da rol oynayır.

Biz əməkdaşlığa açığıq. Qeyd etdiyim kimi, biz artıq bir neçə ölkə ilə bu mərkəzlərin o ölkələrdə yaradılması ilə əlaqədar işlər görmüşük və müvafiq addımlar da atılıb. Növbəti mərhələdə həm bu il, həm gələn il bölgələrdə, Bakı şəhərində yeni mərkəzlərin açılışı nəzərdə tutulur. Hazırda Bakıda beş mərkəz fəaliyyət göstərir. Ancaq bildiyimə görə, bəzi mərkəzlərdə sıxlıq müşahidə olunur. Çünki birincisi, xidmətlərin sayı artdı. "ASAN xidmət" fəaliyyətə başlayanda xidmətlərin sayı, səhv etmirəmsə, 100-ə qədər idi, indi isə 320-dir. Əhali də artır və müraciətlərin sayı da artır. Ona görə Bakı şəhərində əlavə iki mərkəzin yaradılması ilə bağlı qərar qəbul edildi. Eyni zamanda, Sumqayıt və Gəncə şəhərlərinin hər birində ikinci mərkəzin açılışı nəzərdə tutulur və digər şəhərlərdə.

Nəzərə alsaq ki, "ASAN xidmət"in 10 səyyar avtobusu fəaliyyət göstərir, hesab edirəm ki, biz, növbəti 2-3 il ərzində ölkəmizin bütün bölgələrini əhatə edəcəyik və insanlara çox gözəl xidmət göstərəcəyik. Mən hər bir yeni mərkəzin açılışında bir yenilik də görürəm. Çünki "ASAN xidmət" öz fəaliyyətini genişləndirir, ABAD kimi brend artıq fəaliyyətdədir və ailə təsərrüfatlarının inkişafı ilə əlaqədar dövlət dəstəyi xüsusi rol oynayır. Ölkəmizin müxtəlif yerlərində fəaliyyət göstərən ailə təsərrüfatları öz məhsullarını artıq bazara çıxarırlar, eyni zamanda, ixrac etməyə başlayırlar. Bu da ümumi iqtisadi inkişafımıza böyük töhfədir.

Bildiyiniz kimi, hazırda biz özünüməşğulluq proqramı ilə ciddi məşğuluq. Bu il ən azı 10 min insan bu proqrama cəlb ediləcək. O cümlədən ABAD xətti ilə yaradılan kiçik istehsalat sahələri də özünüməşğulluq proqramına böyük dəstəkdir. Bilirəm ki, mənim çağırışımla özəl şirkətlər də ABAD-la müqavilələr bağlayıb, onlara vəsait ayırıb ki, bu sahədə işlər daha geniş vüsət alsın.

Bu mərkəz Ağcabədi rayonu üçün yeni bir xidmət, istirahət, eyni zamanda, əyləncə mərkəzi olacaqdır. Burada iki kinoteatr fəaliyyət göstərir. Bildiyimə görə, Ağcabədi şəhərində kinoteatr yoxdur. Burada gənclərin asudə vaxtlarını keçirmələri üçün imkanlar var, ABAD ticarət mərkəzi fəaliyyət göstərir. Ona görə bu mərkəz insanları cəlb edəcək. Ağcabədi gəncləri burada işlə təmin olunurlar. Qeyd etdiyim kimi, 200-dən çox iş yeri yaradılır ki, bu iş yerlərində gənclər çalışacaqlar.

Bu mərkəzin Ağcabədi rayonunda yaradılması təsadüfi deyil. Ağcabədi əhali baxımından ölkəmizin ən böyük rayonlarından biridir. Ağcabədi Qarabağ torpağında yerləşir və son illərdə rayonun inkişafı üçün bir çox işlər görülübdür. Bu, mənim Ağcabədiyə Prezident kimi 7-ci səfərimdir və bu illər ərzində çox böyük işlər görülübdür. Ağcabədidə infrastruktur tamamilə təzələnib. Elektrik enerjisi ilə bağlı əvvəlki illərdə problemlər var idi. İndi bu problemlər aradan qaldırılır. Bu gün Ağcabədidə açılacaq yeni yarımstansiya rayonu dayanıqlı enerji ilə təchiz edəcək. Ağcabədidə qazlaşdırmanın səviyyəsi 90 faizdən çoxdur. Cəmi bir neçə il bundan əvvəl burada insanlar ümumiyyətlə qazın nə olduğunu unutmuşdular. Şəhərin, kəndlərin qaz təchizatı yox idi. İndi qaz təchizatı 90 faizdən çoxdur. Yeni yolların çəkilişi. Mənim növbəti sərəncamlarımda yeni yol infrastrukturunun yaradılmasına əlavə vəsait ayrılması nəzərdə tutulub. Mənə verilən məlumata görə, Ağcabədi rayonunun şəhər və kənd yollarının 60 faizi yenidən qurulur. Qalan 40 faiz üçün də bizim proqramlarımız var. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında onlar təsbit edilib. Biz bütün yolları abadlaşdıracağıq.

İçməli su layihəsi öz həllini tapır. Bu gün biz Ağcabədi şəhərinə içməli suyun verilməsini qeyd edəcəyik. Bu da böyük layihədir. Çünki həmişə Ağcabədidə içməli su böyük problem idi. Bu məsələ də öz həllini tapır. Mənim Sərəncamımla suvarma suyu ilə bağlı 115 subartezian quyusu qazılıbdır və əlavə 30 quyu qazılacaq. Çünki kənd təsərrüfatının inkişafı üçün su əsas amillərdən biridir.

Rayon mərkəzi xəstəxanası tikilib. Ölkəmizin rayonlarda yerləşən ən böyük xəstəxanalarından biridir. Özü də müasir standartlara cavab verən avadanlıqla təmin edilib. Olimpiya İdman Kompleksi, Qarabağ Muğam Mərkəzi, "ASAN Həyat" kompleksi - bütün bunlar mənim təşəbbüsümlə və dövlət büdcəsi hesabına görülmüş işlərdir. Ona görə Ağcabədi rayonunun infrastrukturuna, sosial obyektlərinə, insanları narahat edən problemlərin həlli üçün nəzərdə tutulmuş layihələrə çox böyük vəsait qoyulubdur. Bu, bir daha onu göstərir ki, ölkəmizin hər bir yerində işlər bu səviyyədə görülməlidir, plan üzrə, ardıcıllıqla, prioritetləri düzgün müəyyənləşdirməklə. Bunları biz etmişik. Əgər infrastruktur layihələri icra edilməsəydi, o biri layihələrin, ümumiyyətlə, əhəmiyyəti olmazdı. Bu təməli biz yaratmışıq. Ona görə indi iqtisadi inkişaf daha sürətlə getməlidir.

Kənd təsərrüfatı texnika ilə tam təmin etmişik. Bu gün Ağcabədidə biçin mövsümünə artıq start verildi. Nəinki Ağcabədi rayonunu, bütün ölkəmizi, taxılyığan, pambıqyığan kombaynlarla tam təmin etmişik, özü də dünyanın ən qabaqcıl şirkətlərinin istehsalı olan kombaynlarla. Bizim kəndlilər, fermerlər bunu görməyiblər. Sovet vaxtından qalan sınıq-salxaq kombaynları onlar güc-bəla ilə təmir edirdilər, çalışırdılar ki, onlara xidmət göstərsinlər. Onlar da dəqiqəbaşı sınırdı, sonra sıradan çıxırdı. Bir neçə il ərzində texnika təchizatı, ümumiyyətlə, mövcud deyildi. Ona görə torpaqlar qalmışdı başsız, əkin-biçin getmirdi. Bunu da həll etmişik. Ona görə bu, gözəl bir təməldir. İndi bütün infrastruktur yaradılıb, texnika ilə təchiz edilib. Əsas indi sahibkarlar gərək öz sözünü desinlər. Ağcabədidə dörd iri fermer təsərrüfatı yaradılıb. Taxılçılıqda fermer təsərrüfatlarının xüsusiyyəti ondadır ki, məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan qat-qat üstündür, o cümlədən pambıqçılıqda. Biz ölkəmizi bu yolla inkişaf etdirəcəyik və iqtisadiyyatımızın şaxələndirilməsini təmin edəcəyik.

Əlbəttə, "ASAN xidmət"in fəaliyyətinə qayıdarkən, bir daha demək istəyirəm ki, bu xidmətin timsalında bizim müasir yanaşmamız görünür. Onu görürük və sübut edirik ki, korrupsiya ilə, rüşvətxorluqla nəinki mübarizə aparmaq mümkündür, uğur qazanmaq mümkündür. Biz bütün vasitələrdən istifadə edirik. Əlbəttə, hesab edirəm ki, burada əsas rol sistem xarakterli tədbirlərdir. Çünki artıq "ASAN xidmət"in timsalında görürük ki, burada bu, mümkündür. Ona görə, bu sistem xarakterli institusional tədbirlərlə biz korrupsiyanın, kölgə iqtisadiyyatının meydanını daraldırıq. Ancaq bununla yanaşı, inzibati tədbirlər və cəza tədbirləri görülür və görüləcək. Azərbaycan ictimaiyyəti bu məsələ ilə bağlı məlumatlandırılır. Deyə bilərəm ki, mənim ünvanıma gələn minlərlə məktubda korrupsiya, rüşvətxorluq ilə bağlı bizim mübarizə çox yüksək qiymətə layiq görülür. Vətəndaşlar bunu təqdir edir, bəyənir və biz görürük ki, yerlərdən artıq siqnallar gəlməyə başlayır. Mən bir daha demək istəyirəm ki, mütləq ictimai nəzarət olmalıdır. Məmur özbaşınalığı ilə bağlı hər bir siqnal araşdırılacaq. Təbii ki, bu siqnallar ədalətli olmalıdır. Burada da hansısa qarayaxma kampaniyasına yol verməmək olmaz və kortəbii yanaşmaq olmaz. Hər bir siqnal ciddi araşdırılacaq. Çünki istisna deyil ki, kimsə yalandan ortalığa bir məlumat ata bilər, kiminsə kimdənsə xoşu gəlmir, onun haqqında nəsə yaza bilər, belə hallar da var. Ona görə, ilk növbədə, ədalət və ictimai nəzarət təmin edilməlidir. Əminəm ki, biz korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə də qalib gələcəyik. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizə sayəsində görülmüş işlərə yüksək qiymət verərək Azərbaycanı nümunəvi ölkə adlandırıb. Bəlkə də başqa ölkələr haqqında oxşar fikirlər səsləndirilib, amma mən eşitməmişəm. Amma Azərbaycana gəldikdə, Ümumdünya Səhiyyə Təşkilatı, o təşkilat ki, dünya miqyasında bütün səhiyyə sahəsində işlərə rəhbərlik edir və işləri koordinasiya edir, Azərbaycanı nümunəvi ölkə adlandırıb.

Bütün bunlar bir daha ona göstərir ki, birincisi, Azərbaycan güclü dövlətdir, ikincisi, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun sağlamlığıdır. Bu, onu göstərir ki, bizim tədbirlərimiz məqsədyönlüdür, səmərəlidir, vaxtında atılmış cəsarətli addımlardır. Biz insanların həyatını qorumaq üçün şüurlu şəkildə iqtisadi tənəzzülə və iqtisadi itkilərə getdik. Milyardlarla manat, - baxmayaraq ki, neftin qiyməti düşüb, - xərclədik və xərcləyirik. İnsanların sağlamlığı birinci yerdədir. Bu, onu göstərdi ki, ən çətin böhranlı anlarda biz düzgün addım ata bilərik və güclü iradə göstərə bilərik. Mən hər gün insanlardan yüzlərlə təşəkkür məktubu alıram. Onların cəmi bir hissəsi mətbuatda dərc edilir. İnsanlar bu məktublarda minnətdarlıqlarını bildirirlər. Mənim üçün görülmüş bu işlərə verilmiş ən yüksək qiymət vətəndaşların buna münasibətidir.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə fəaliyyətinizdə uğurlar diləmək istəyirəm. Əminəm ki, siz - "ASAN xidmət"də çalışan işçilər, könüllülər, öz işinizlə ölkəmizin ümumi inkişafına töhfə verəcəksiniz. Bir daha təbrik edirəm. Sağ olun.

■ **İyunun 3-də Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri istismara verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

Cəbhəyanı ərazidə yerləşən Ağcabədi şəhərində əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2017-ci ildə "Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nin icrasına başlanıb.

Azərbaycan hökuməti və Asiya İnkişaf Bankının birgə maliyyələşdirdiyi "Su təchizatı və kanalizasiya investisiya proqramı" çərçivəsində icra olunan layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla 45 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb.

Prezident İlham Əliyev Ağcabədi şəhərinə içməli suyun verilməsini təmin edən qurğunu işə saldı.

Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov dövlətimizin başçısına məlumat verdi ki, Ağcabədi şəhərini içməli su ilə təmin etmək üçün mənbə olaraq yeraltı sular seçilib və bu məqsədlə 14 subartezian quyusu qazılıb. Su mənbəyindən şəhərə 15 kilometr uzunluğunda magistral su xətti çəkilib. Şəhərin dayanıqlı su təchizatı məqsədilə hər birinin tutumu 10 min kubmetr olan 2 su anbarı inşa edilib. Layihə çərçivəsində Ağcabədi şəhərində 350 kilometr içməli su xəti çəkilib, 8500 ünvana ev birləşməsi verilərək su sayğacları quraşdırılıb. Suyun optimal idarə olunması üçün 618 siyirtmə, yanğın təhlükəsizliyi məqsədilə 905 yanğın hidranti quraşdırılıb. Hazırda şəhər əhalisi yeni çəkilmiş şəbəkə vasitəsilə 24 saat keyfiyyətli içməli su ilə təmin olunur.

Ağcabədi şəhərində tullantı sularının idarə edilməsi məqsədilə 305 kilometr tullantı su şəbəkəsi, 4 kanalizasiya-nasos stansiyası, 9 kilometr kanalizasiya kollektoru inşa edilib. Yeni yaradılmış tullantı su şəbəkəsindən ünvanlara birləşmələr verilib. Şəhərdə yaranacaq tullantı suların zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 10 min kubmetr olan təmizləyici qurğunun tikintisi üzrə son tamamlama işləri aparılır. İstehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Ağcabədi Sukanal Sahəsi üçün müasir tipli inzibati bina tikilib.

■ **İyunun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 110/35/10 kilovoltluq "Ağcabədi-2" elektrik yarımstansiyasının yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib.**

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına məlumat verdi ki, istehlakçıların elektrik təchizatının yaxşılaşdırılması məqsədilə Ağcabədi rayonu ərazisində 35 kilovoltluq yarımstansiyada əsaslı yenidənqurma işləri aparılaraq, gərginlik sinfi artırılıb və 110/35/10 kilovoltluq "Ağcabədi-2" yarımstansiyası inşa edilməklə, yarımstansiyanın qoyuluş gücü 17,5 MVA-dan 40 MVA-ya çatdırılıb. Bu yarımstansiya vasitəsilə Ağcabədi şəhərində sosial-iqtisadi



təyinatlı obyektlərin, meliorasiya və suvarma sistemlərinin, ətraf kənd və qəsəbələrin, həmçinin Taxtakörpü ərazisində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkünlərin və hərbi hissələrin fasiləsiz və dayanıqlı elektrik enerjisi təchizatı təmin olunacaq.

Yarımstansiyanın istismara verilməsi ilə 5262-si əhali, 831-i qeyri-əhali olmaqla, ümumilikdə 6093 abonentin elektrik enerjisinin təchizatı daha da yaxşılaşdırılacaq. Yarımstansiya beynəlxalq standartlara cavab verən müasir tipli elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib, məsafədən idarə olunan SKADA dispetçer sisteminə qoşulub. Yarımstansiyanın 330 kilovoltluq "İmişli" və "Ağcabədi" qovşaq yarımstansiyaları ilə əlaqələndirilməklə dairəvi elektrik təchizat sxeminə qoşulması təmin edilib ki, bu da istehlakçıların, xüsusən də əhalinin enerji təchizatının dayanıqlılığını və etibarlılığını artırır.

Dövlətimizin başçısı "Ağcabədi-2" elektrik yarımstansiyasını işə saldı.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə elektroenergetika sahəsində mühüm işlər görülüb, çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıb. Bu sırada Ağcabədi rayonunda energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchiz olunması prioritet məsələlərdən olub.

Son illərdə aparılan geniş tikinti, yenidənqurma və bərpa işləri nəticəsində rayonun kəndləri və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, həmçinin kənd təsərrüfatı obyektlərinin artan elektrik tələbatının qarşılanması üçün geniş imkanlar yaranıb. Bu illərdə rayonda xeyli hava xətləri çəkilib, kəndlərin elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənib. Bununla mövcud elektrik şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər kəskin şəkildə azalıb.

# İnsanlar anlamalıdır ki, amansız virusla üz-üzəyik...

***Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargahın aldığı qərara əsasən, iyunun 5-i günorta saatlarından başlayaraq, şənbə və bazar günləri də daxil olmaqla, ölkədə ciddi karantin rejimi tətbiq olunacaq. Son dövrlər koronavirusa yoluxma hallarının sayının artması belə bir qərarın alınmasını şərtləndirib.***



**Məlahət İsayeva,**
11 saylı klinikanın
sahə həkimi

Bəs ikigünlük ciddi karantin rejimi COVİD-19 virusundan qurtulmağımıza səbəb olacaqmı? Bu müddət az deyil ki? Ciddi karantin rejimi yenidən uzunmüddətli formada tətbiq oluna bilərmi?

Müsahibimiz 11 saylı klinikanın sahə həkimi Məlahət İsayevadır. Suallarımıza 3 aydan çoxdur ki, koronavirusla mübarizə aparan həkimlər briqadasında çalışan Məlahət xanımla aydınlıq gətirməyə çalışacağıq. O, hafta.az-a müsahibəsində deyib ki, hazırda səhiyyə ocaqlarında xəstələrin sayı çoxalıb. Onların böyük əksəriyyəti pnevmoniyadan əziyyət çəkənlərdir.

***- Məlahət xanım, indi müalicə alanların əsas şikayətləri nələrdir?***

- Pnevmoniya xəstələri daha çoxdur. Yəqin ki, bunun da əsas səbəblərindən biri insanların bir-biri ilə yaxın təması ilə əlaqədardır. Karantin rejimi yüngülləşdirildi. İnsanlar bir-biri ilə daha çox təmasda oldular, tibbi maskalardan istifadə eləmədilər. Çox yaxın məsafədən görüşürlər, danışırlar. İnsanların bir-birləri ilə yaxın məsafə saxlamaları bu xəstəliyin daha çox artmasına səbəb oldu. Mən belə başa düşürəm. Üçüncü aydır ki, koronaviruslu xəstələrin müalicəsi və yenidən sağlam həyata qaytarılması üçün çalışıram. Xəstəxanalar, demək olar ki, pnevmoniyalı xəstələrlə dolub. Ən çox müraciət edən bunlardır. Çox ağır vəziyyətdə gəlirlər. Tənəffüs çatışmazlığı və boğulma olur. Süni tənəffüs aparatına qoşulurlar. Bu saat xəstələrimiz bu vəziyyətdə - ağır formada gəlirlər.

***- Bəs vəziyyət ağırlaşmamışdan əvvəl durum necə idi?***

- Üç ay bundan əvvəl xəstələrimiz yüngül formada idi. Adi qrip əlamətləri ilə müraciət edirdilər. İndi xəstələrimiz o qədər çoxalıb ki, inanırsınız, palatalarımızda yer yoxdur. Reanimasiyalar doludur. Hamısı tənəffüs aparatına qoşulub. Bizim özümüzdə də qorxu, vahimə həyəcan əmələ gəlib. Özüm üçüncü aydır ki, işləyirəm, məndə də qorxu hissi var. Həkimlərimiz, hətta kamuflaj formada yoluxurlar. Başa düşmürük ki, bu yoluxma hansı formada baş verir? Hamısı pnevmoniya, yüksək hərarət və boğulma... Bunların içərisində isə ən çox qeydə alınan boğulmadır - tənəffüs çatışmazlığı.

***- Necə düşünürsünüz, şənbə və bazar günlərində ciddi karantin rejiminin yenidən tətbiq olunması yoluxma sayının azalmasına gətirib çıxara bilərmi?***

- Heç nə deyə bilmərəm, iki gün ciddi karantin rejiminin tətbiqi ilə yoluxanların sayında azalma olacaq, ya yox... yəqin ki, öz təsirini göstərəcək. Bu təsir mülayim formada olacaq. Mənə elə gəlir ki, karantin rejimi bir qədər uzadılsa, yaxşı olar. Mən bu cür fikirləşirəm. Biz belə düşünürdük ki, yayın gəlməsi, havaların istiləşməsi ilə virus öləcək, məhv olacaq. İndi belə başa düşürəm ki, getdikcə virus daha da çoxalır. Çox maraqlıdır, virus xarici ölkələrdə azalmağa doğru gedir. Yoluxanların sayında azalmaların olduğu bildirilir. Bizdə isə əksindədir, çoxalır. Gözümün şahidiyəm, burada xəstələrin müalicəsi ilə məşğulam və şokdayam. Gözlərimlə görürəm xəstələrin hansı ağır vəziyyətdə gəldiyini... Azalmaq əvəzinə çoxalır. İki gün ciddi karantin rejiminin tətbiqi ilə bu düzələcəkmi, yaxşı olacaqmı, bunu bilmirəm. Bir-iki günlə, çətin ki, vəziyyət düzəlsin.

***- Mütəxəssis kimi deyə bilərsinizmi ki, ciddi rejim nə vaxta kimi tətbiq edilsə, virusdan tamamilə canımızı qurtara bilərik?***

- Bilirsiniz, bunu heç kim deyə bilməz. Sadəcə olaraq ciddi karantin rejimi davam etsə, daha yaxşı olar. Bir neçə ay davam etsin və mülayim şəkildə, yavaş-yavaş prosesi yumşaltmaq olar. Bunların hamısı birdən-birə oldu. Çox yüngülləşdirildi. İş yerləri açıldı. İnsanlar elə bil azadlığa çıxdı.

Tibbi maskaları çıxarıb atdılar. İnsanlar 2 metrlik təmas məsafəsini yığışdırdılar, ləğv etdilər. Görüşüböpüşdülər. İnsanlarda virusun varlığına inamsızlıq əmələ gəldi. İnanın ki, mən özüm də burada şokdayam, vəziyyət çox ağırdır. İnsanlar koronavirusun varlığına inanmalıdırlar. Başa düşsünlər ki, amansız virusla üz-üzəyik. Bilsinlər ki, doğrudan da belə virus var. Əvvəllər yüngül formada idi, insanlar inanmırdı. İndi çox ağır formadadır. Koronavirusla zarafat etmək lazım deyil. Şəxsən mən özüm qorxuram.

***- Virus hazırkı durumda daha çox hansı orqanları zədələyir?***

- Birbaşa ağ ciyər orqanlarını dağıdır, ciddi şəkildə zədələyir.

***- Belə başa düşdüm ki, dərmanlar da artıq bu virusa təsir göstərmir...***

- Bəli, artıq dərmanlar təsir göstərmir. Bu virus dərmanlara davamlıdır, müqavimət göstərir. Virus dərmanı qəbul etmir. Xəstələr 14-15 gün müalicə alırlar, bir də görürsən ki, elə sonuncu gün tənəffüs çatışmazlığına görə reanimasiyaya düşürlər. Reanimasiyada xeyli xəstəmiz var, ölüm sayı artıb. Ölüm səbəbinin də hamısı pnevmoniya və tənəffüs çatışmazlığıdır.

***- Ən çox yoluxan kimlərdir?***

- Ən çox yoluxanlar yanaşı xəstəlikləri olanlardır. İnsanlar gərək immunitetlərini gücləndirsinlər. İmmuniteti güclü olan insana heç bir xəstəlik yaxın durmur. Ən çox vitaminlərdən - vitamin "C", vitamin "D" - istifadə etsinlər. Tibbi maska ilə təmiz havada gəzsinlər. Xəstə insanlardan uzaq olsunlar. İdmanla - üzgüçülüklə məşğul olsunlar. Sağlamlıqlarına və qidalarına riayət etsinlər. Bunlar çox vacibdir.

***- Bu saat səhiyyə ocaqlarında hansı xəstələr müalicə alır?***

- Şəkərli diabet, ürək-damar sistemində çatışmazlıqları olanlar, böyrək xəstələridir. Bunların immuniteti çox zəifdir. 80 yaşında insan xərçəng xəstəliyinə tutulur. Niyə - çünki onların immuniteti yoxdur. Bədən xəstəliyə qarşı mübarizə aparmaq gücündə deyil. İmmuniteti zəif olan insanlar həmişə virusa birinci yoluxacaq. Bu insanları xəstəlikdən qorumalıyıq. Birinci növbədə vəzifəmiz budur. Yaşı 65-dən yuxarı olan insanlar bu virusa inanmırdılar. İndi burada müalicə alanların sayı yaşı 65-dən yuxarı olanlardır.

***✍ Tural Turan***

# XİN Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə Aİ-yə təşəkkür edib

**Azərbaycan Xarici İşlər nazirinin müavini Mahmud Məmməd-Quliyev Avropa Xarici Fəaliyyət Xidmətinin Baş katibinin siyasi məsələlər üzrə yeni müavini Enrike Mora ilə video-konfrans formatında görüş keçirib. Bu barədə Azərbaycan XİN-in Mətbuat Xidməti İdarəsi məlumat yayıb.**

Görüşdə nazir müavini M. Məmməd-Quliyev yeni təyinatı ilə bağlı E. Moranı təbrik edib və onun Avropa İttifaqı (Aİ) - Azərbaycan münasibətlərinin inkişafına töhfə verəcəyindən əminliyini bildirib.

Nazir müavini Azərbaycanın Aİ ilə təhlükəsizlik sahəsində dialoqunun əhəmiyyətini qeyd edərək bu günədək müvafiq sahədə yüksək səviyyəli nümayəndə heyətlərinin iştirakı ilə Bakı şəhərində keçirilmiş görüşlərin səmərəliliyinə və əhəmiyyətinə diqqət çəkib. O, Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün dəstəklənməsi ilə bağlı Aİ-nin mövqeyinə görə təşəkkürünü bildirib və Aİ Xarici İşlər Nazirləri Şurasının Şərq Tərəfdaşlığının gələcəyi ilə bağlı 12 may 2020-ci il tarixli Yekunlar sənədində, həmçinin Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi Cozep Borrelin cari ilin 28 may tarixində BMT Təhlükəsizlik Şurasının brifinqində vurğulandığı kimi, bu prinsiplərin Aİ-nin tərəfdaş ölkələrlə münasibətlərində əsas element kimi qalacağına əminliyini ifadə edib.



E.Mora Azərbaycanın Şərq Tərəfdaşlığı proqramında Aİ-nin önəmli tərəfdaşı olduğunu, Azərbaycanın regional təhlükəsizlik və sabitliyə böyük töhfə verdiyini, dünyəvilik dəyərlərinə malik Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafında böyük rol oynadığını bildirib. O, Aİ-nin ölkəmizlə bağlantılar, o cümlədən nəqliyyat sahəsində əməkdaşlığın böyük potensiala malik olduğunu vurğulayıb. Aİ rəsmisi "COVID-19" ilə mübarizədə Azərbaycanın effektiv tədbirlər həyata keçirdiyini, pandemiyanın təsirlərinin aradan qaldırılmasında Aİ-nin Azərbaycana dəstək göstərməyə hazır olduğunu bildirib.

Tərəflər, həmçinin Azərbaycan və Avropa İttifaqı arasında Yeni İkitərəfli Saziş üzrə danışıqların irəlilədilməsi ilə bağlı fikir mübadiləsi aparıblar.

# Faşizm Ermənistanın siyasi həyatında norma kimi qəbul olunur

**Beynəlxalq ictimaiyyətin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqe nümayiş etdirməsi beynəlxalq təhlükəsizliyin bərqərar olmasında mühüm dönüş ola bilər. Bu fikri Milli Məclisin deputatı Sevil Mikayılova deyib.**

Sevil Mikayılova bildirib ki, Prezident İlham Əliyevin uzun illərdən bəri Dağlıq Qarabağ münaqişəsi və Ermənistanın təcavüzkar siyasəti ilə bağlı həqiqətləri yüksək tribunalardan səsləndirməsi, eləcə də bu istiqamətdə dövlətimiz tərəfindən aparılan məqsədyönlü fəaliyyət dünya birliyində obyektiv fikir formalaşdırıb: "Məhz buna görə də bu gün beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sərgilədiyi mövqe həqiqəti, ədaləti əks etdirir. Xüsusilə, son zamanlar beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsi və onun ətrafında baş verən proseslərlə bağlı yaydığı bəyanatlar bütün dünyada separatizm meyillərinin birmənalı şəkildə pisləndiyini, təcavüzkar siyasətin ikrah doğurduğunu və regionda sülhə real təhdid yaratmasının narahatlıqla qarşılandığını aydın göstərir.



Məhz cənab Prezident İlham Əliyevin ardıcıl səyləri nəticəsində bütün aparıcı beynəlxalq təşkilatlar münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması ilə əlaqədar müvafiq bəyanatlar veriblər. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, "bizim bir çox ölkələrlə ikitərəfli formatda imzaladığımız strateji tərəfdaşlıq haqqında bəyannamələrdə ölkəmizin ərazi bütövlüyü dəstəklənir və münaqişənin məhz bu prinsiplər əsasında həll olunması təsbit edilir". Ermənistan daxilində siyasi uğursuzluğa uğrayan baş nazir Nikol Paşinyan ölkədə faşizm və millətçilik meyillərinin təbliğ olunması istiqamətində utancverici fəaliyyəti ilə artıq gündəmdədir. Faşist Njdeyə 6 metrlik abidənin ucaldılması və faşizm üzərində Qələbənin 75 illik yubileyi günündə bu abidə önünə əklil qoyulması, heç sözsüz, Ermənistandakı siyasi rejimin əsl mahiyyətini olduğu kimi göstərir. Deputat qeyd edib ki, terroru və faşizmi dövlət səviyyəsində dəstəkləyən bir ölkə, şübhəsiz, nəinki region, həm də dünya üçün təhdiddir: "Heç təsadüfi deyil ki, faşizmin təzahürləri artıq Ermənistanın siyasi həyatında norma kimi qəbul olunur. Hətta ölkə rəhbəri Paşinyan öz faşist kökləri ilə öyünür, erməni millətçi legionunda xidmət etmiş babası ilə fəxr edir. Bu, onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin terrorçu və faşist mahiyyəti dəyişməz olaraq qalır. Məhz bu siyasi mühitin formalaşdığı bir dönəmdə Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində beynəlxalq birliyin çevik addımları dünyada sülhə və təhlükəsizliyə verəcəyi böyük töhfə olacaq. Buna görə də təcavüzkarı adı ilə adlandırmağın, beynəlxalq hüququn norma və prinsiplərinin həyata keçməsi üçün fəaliyyəti sülh və dayanıqlı həllin əldə olunması üzərində cəmləşdirməyin zamanıdır".

■ **"Ötən gün Tərtər Olimpiya İdman Kompleksinin açılışında Azərbaycan Prezidenti İlham Əliyev öz nitqində erməni fazişmini tarixi faktlarla açıb göstərdi". Bu fikirləri isə Milli Məclisin deputatı Azər Badamov deyib.**

O bildirib ki, ermənilər hər zaman öz siyasətlərini faşizm üzərində qurublar və bu siyasətlərini tarixin hər dönəmində təkrarlamağa cəhd ediblər: "Məsələn II Dünya Müharibəsində ermənilər alman fazişmi tərəfində vuruşmuş, xüsusi briqada təşkil edərək hamıya qarşı öz bəd niyyətlərini ifadə etməyə çalışmışlar. O vaxt ki erməni komandiri Qaregen Njde qeyd etmişdi ki, kim alman faşizmi tərəfində vuruşursa, demək o Ermənistan tərəfində vuruşur".

Deputat söyləyib ki, müharibədən sonra Njde SSRİ qanunları ilə cəzalandırılaraq, həbsxanada vəfat etmişdi: "Amma buna baxmayaraq, erməni rəhbərliyi Njdeni yenidən qəhrəmanlaşdırır və ona mərkəzdə 6 metr hündürlüyündə abidə ucaldır. Prezident İlham Əliyevin çıxışında da söylədiyi kimi, Azərbaycanda quruculuq, abadlıq işləri aparılır, hər bir şəhərdə sosial obyektlər, belə gözəl olimpiya mərkəzləri, xəstəxanalar, məktəblər tikilir, yollar çəkilir, qazlaşdırma aparılır, lakin Ermənistan yığdığı ianələrlə faşizmin qəhrəmanlaşdırılması istiqamətində tədbirlərə imza atır".

Badamov vurğulayıb ki, ölkə başçısının da söylədiyi kimi Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin terrorçu və faşist mahiyyəti dəyişməz olaraq qalır: "Azərbaycan topaqlarının bu gün də işğal altımda saxlanması, ötən gün ölkə başçısının səfər etdiyi Tərtər rayonunda su ilə bağlı problemin olması erməni faşizminin göstəricisi kimi qeyd etmək olar. Ermənistanın Tərtər şəhərini, Ağdamın kəndlərini bombalaması faşizmin təzahürüdür. Ermənilərin Tərtər çayı üzərində inşa edilən Sərsəng su anbarından Azərbaycan torpaqlarını suvarmasına imkan verməməsi də onların terrorçu mahiyyətini ortaya qoyur". Aprel döyüşlərində Azərbaycan ordusunun erməni silahlı birləşmələrini darmadağın etdiyini xatırladan deputat qeyd edib ki, ermənilər isə Azərbaycan ordusuna gücü çatmadığı üçün təmas xəttinə yaxın olan rayonlarımızda yaşayan əhaliyə atəş açmaqla qətl hadisələri törətmişlər: "Bunun özü də faşizmin növbəti göstəricisidir. Ermənistan faşizm siyasəti üzərində qurulduğunu artıq dünya ölkələri də anlayır və onların siyasəti pislənir".

***✍ Tural***

## GÜNÜN TƏZADLARI

### Göyçayda polis azyaşlını kanalda boğulmaqdan xilas etdi



■ **Göyçayda polislər və həkimlərin fədakarlığı sayəsində körpə uşaq ölümdən xilas edildi.** Hafta.az yazır ki, DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan Musavat.-com-a verilən məlumata görə, Göyçay Rayon Polis Şöbəsinin Post Patrul Xidməti Bölüyünün əməkdaşları Etibar Əmirov və Elman Əhmədov şəhər ərazisində xidmət aparan zaman bir azyaşlının su kanalında boğulduğunu görüblər. Etibar Əmirov dərhal həmin azyaşlını sudan çıxarıb, ona ilkin tibbi yardım göstərib. Kiçikyaşlı uşağın həyati təhlükəsi nəzərə alınaraq, polis əməkdaşı vaxt itirmədən öz şəxsi avtomobili ilə onu Göyçay Rayon Mərkəzi Xəstəxanasına çatdırıb. Həkimlərin də müdaxiləsi ilə körpənin həyatı xilas edilib. Polis əməkdaşları azyaşlının valideynləri ilə profilaktik söhbətlər aparıb, nəzarətsiz buraxmamaları barədə təlimatlandırıblar. Uşağın valideynləri də övladlarının həyatını xilas etdiyi üçün asayiş keşikçisinə öz minnətdarlıqlarını bildiriblər.

### ABŞ-da qətlə yetirilən qaradərilinin orqanizmində koronavirus aşkarlandı



■ **Amerikada polis tərəfindən həbs olunduqdan sonra vəfat edən qaradərili Corc Floydun koronavirusa yoluxmuş olduğu haqda informasiyalar meydana çıxdı.**

Hafta.az Rusiya mediasına istinadla xəbər verir ki, bu barədə "The Sun" Hennepin dairə məhkəmə tibb ekspertləri tərəfindən aparılan yarılma nəticələrinə istinadla məlumat yayıb.

Mütəxəssislər rəsmi hesabatda yazıblar ki, çox güman ki, Floyd simptom olmadan koronavirusa tutulub. Həkimlər mərhumun cəsədində kannabinoidlər, amfetamin və fentanil kimi maddələrin olduğunu da iddia ediblər.

### İsrailin Knesseti koronavirusa görə işini dayandırdı



■ **İsrailin qanunverici orqanı fəaliyyətini məhdudlaşdırdı.** Hafta.az yazır ki, APA-nın "BBC"yə istinadla verdiyi xəbərə görə, Knessetin bir üzvünün yeni növ koronavirusa (COVID-19) yoluxması təsdiqləndikdən sonra parlamentarilərə ehtiyac olmadığı təqdirdə işə gəlməmək tapşırılıb, komitələrin iclasları təxirə salınıb. Qeyd edək ki, Knessetin üzvü Sami Abu Şahade infeksiyaya yoluxub.

### Metroda qatar tunelin divarına çırpıldı



■ **Rusiya paytaxtında metropolitendə qatar tunelin divarına çırpıldı. Hafta.az xəbər verir ki, "MK" qəzeti qəza yerindən görüntüləri yayımlayıb.** Məlumata görə, "Planernoye" elektrodeposunda "Moskva" qatarı divarı dəlib. Toqquşma qatar saatda beş kilometr sürətlə hərəkət edərkən baş verib. Mənbədən qəzetə bildirilib ki, qəzaya maşinistin "KTR" (rezerv əyləcə nəzarət) düyməsini basmağı unutması səbəb olub. Hadisə nəticəsində zərər çəkən yoxdur.

### Bakıda 600 manatlıq velosiped oğurlandı



■ **Paytaxtda velosiped oğrusu tutuldu. Hafta.az xəbər verir ki, APA-nın məlumatına görə, mayın 20-də, gecə saatlarında Nərimanov rayonu Ə.Əliyev küçəsində A.Kərimzadənin 600 manat dəyərində velosipedi oğurlanıb.**

Nərimanov Rayon Polis İdarəsinin 17-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədibləri nəticəsində oğurluqda şübhəli bilinən Bakı şəhər sakini 1980-cı il təvəllüdlü Orxan Məmmədov saxlanıb.

*✍ Sultan Laçın*

# Liviya ordusu Tripolini tam nəzarətə götürüb

**Liviya Milli Razılıq Hökuməti ordunun paytaxt Tripolini tam nəzarətə götürdüyünü bəyan edib.**

Xəlifə Haftarın rəıhbərlik Liviya Milli Ordusunun (LMO) qüvvələri geri çəkilir. "Daily Sabah"ın məlumatına görə isə Liviyanın Baş Naziri Faiz Sərrac Tripolidən savayı, daha iki şəhərin Haftar qüvvələrindən azad olunduğunu açıqlayıb. O, Haftar qüvvələrinin gənc üzvlərini silahlarını təhvil verməyə çağırıb.

# Braziliyada koronavirusdan rekord sayda ölüm qeydə alınıb

**Braziliyada koronavirusa yoluxanların sayı 584 mini keçib, 32 548 nəfər isə bu virusdan dünyasını dəyişib. Bu barədə ölkənin Səhiyyə Nazirliyi məlumat yayıb.**

Nazirliyin son məlumatına görə, ölkədə indiyədək 584 016 nəfərə COVID-19 diaqnozu qoyulub. Təkcə son sutka ərzində yoluxanların sayı 28 633 nəfər təşkil edib.

Son sutkada rekord həddə ölüm faktı qeydə alınıb. Belə ki, ölkədə ötən gün 1 349 nəfər koronavirusdan ölüb. Bununla da ölənlərin ümumi sayı 32 548 nəfərə çatıb. Braziliyada sağalanlar isə 238 min nəfərdən çoxdur.

# Zərərçəkən sahələrdə çalışan vergi ödəyiciləri ilə bağlı mühüm qərar

***Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə Vergi Məcəlləsində və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər təsdiq edilib. Bu dəyişikliklər koronavirus (COVID-19) pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar sahibkarlıq subyektlərinə (o cümlədən kiçik və orta sahibkarlığa) vergi güzəştlərinin və tətillərinin verilməsini nəzərdə tutur.***



Dəyişikliklərə əsasən, vergi ödəyicilərinin maliyyə vəziyyətinin yaxşılaşdırılması ilə bağlı qanunvericilikdə müddəalar müəyyən edilib və ölkədə müvəqqəti vergi rejiminin tətbiqinə başlanılıb.

■**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin idarə rəisi Əvəz Quliyev vergi və sosial qanunvericiliyə edilmiş əsas dəyişiklikləri şərh edib.** Ə.Quliyev bildirib ki, Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər müvəqqəti vergi rejiminin tətbiqini və pandemiyadan zərər çəkən sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə əhəmiyyətli güzəştlər və azadolmaları nəzərdə tutur. Belə ki, qanun 1 yanvar 2020-ci il tarixdən etibarən tətbiq olunmağa başlayacaq və 1 il ərzində qüvvədə olacaq. Qanunda müvəqqəti vergi rejiminin tətbiq edildiyi və pandemiyadan zərər çəkmiş fəaliyyət sahələri dəqiq göstərilib. Bura əsasən, ictimai iaşə fəaliyyəti, sərnişin daşımaları sahəsi, mehmanxanalar və bu tipli obyektlərin fəaliyyəti, turoperatorlar, turagentlər, sifarişlər üzrə malların çatdırılması xidmətlərin göstərilməsi, tədris kursları, məktəbdənkənar təhsil müəssisələri, psixoloji mərkəzlərin fəaliyyəti, idman və sağlamlıq mərkəzləri, istirahət və əyləncə, kinoteatr, teatr, muzey və konsert zallarının fəaliyyəti, eyni zamanda Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən fəaliyyətləri məhdudlaşdırılmış fəaliyyət sahələri daxildir.

Sadalanan sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə münasibətdə 1 il müddətinə əhəmiyyətli vergi güzəştlərinin verilməsi nəzərdə tutulub. Belə ki, bu şəxslər 2020-ci il üzrə əmlak və torpaq vergilərindən tam azad edilir, əldə etdikləri mənfəətin və ya gəlirin 75 faizi miqdarında vergi güzəştləri əldə edirlər. Digər vergi güzəştlərinə gəldikdə, idarə rəisi qeyd edib ki, pandemiyadan zərər çəkən sahələrdə çalışan vergi ödəyiciləri fiziki şəxslərdən daşınmaz əmlak icarəyə götürdükləri halda, daşınmaz əmlaka görə ödənilən icarə haqqının dərəcəsi 14 faizdən 7 faizə endirilir.

Qeyd olunan güzəştlər 1 il müddətində tətbiq ediləcək. Bundan əlavə fərqlənmə nişanı almaqla sabit şəkildə vergi öhdəliyi yerinə yetirən daşıma fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə münasibətdə verginin bazasını təşkil edən məbləğ 50 faiz həcmində azaldılacaq. Pandemiyadan zərər çəkməyindən asılı olmayaraq, respublika üzrə fəaliyyət göstərən və 2 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyiciləri olan mikro sahibkarlar üçün vergi dərəcəsi 1 faizə endirilir.

Əvəz Quliyev vergi güzəştləri və azadolmaları ilə yanaşı, həmin kateqoriyadan olan vergi ödəyicilərinə münasibətdə hesabatların təqdim edilməsi və vergilərin ödənilməsi müddətlərinə vergi tətillərinin verilməsi barədə də məlumat verib. Zərərçəkən sahələrdə çalışan vergi ödəyiciləri və mikrosahibkarlıq subyekti olmayan şəxslərin gəlir və mənfəət vergisi üzrə hesabanmış vergiləri ödəmə müddətləri 1 sentyabr 2020-ci il tarixə kimi uzadılır. Həmin müddətdə bu vergi ödəyicilərinə faizlər hesablanmayacaq. Eyni zamanda, mikro sahibkarlıq subyektləri 2020-ci ilin 1-ci və 2-ci rübləri üzrə vergi orqanına verməli olduqları sadələşdirilmiş vergi, eyni zamanda gəlir və əmlak vergisinin bəyannamələrinin verilmə müddəti 2020-ci ilin sentyabrın 1-ə kimi uzadılır və həmin hesablanmış vergilərin də ödəmə müddəti son olaraq 1 sentyabr 2020-ci il müəyyən edilib. Pandemiya dönəmində bir çox vergi ödəyiciləri öz təsərrüfat subyektlərində və ofislərində mütəmadi olaraq dezinfeksiya işlərinin görülməsini təmin ediblər və bununla bağlı müəyyən xərclər çəkiblər.

Müvəqqəti vergi rejimi ilə bağlı qanuna gətirilən fəsildə qeyd edilib ki, həmin vergi ödəyicilərinin dezinfeksiya və profilaktik tədbirlər barədə sənədləşdirilmiş xərcləri məhdudlaşdırılmadan, birbaşa gəlirdən çıxılan xərclərə aid ediləcək. Ə.Quliyev Vergi Məcəlləsi ilə yanaşı, "Sosial sığorta haqqında" qanuna da dəyişikliklərı də şərh edib. O bildirib ki, qanunvericiliyə edilmiş dəyişikliklərlə bəzi fərdi sahibkarların və müxtəlif sahələrdə fəaliyyət göstərən şəxslərin sosial sığorta öhdəlikləri və sosial sığorta yükü optimallaşdırılıb və azaldılıb. İdarə rəisi qeyd edib ki, ölkədə minimum əməkhaqqının məbləği artırılaraq 250 manat müəyyən edilib. Sosial sığorta haqları fərdi sahibkarlar tərəfindən minimum əməkhaqqının faiz nisbətində hesablandığından və minimum əməkhaqqı da müxtəlif vaxtlarda artdığından sosial sığorta üzrə fərdi sahibkarların sığorta yükü artmış olurdu.

Bu məqsədlə sosial sığorta üzrə qanunvericiliyə dəyişiklik olundu və 2020-ci ilin aprel ayının 1-dən 2021-ci ilin 1 yanvar tarixinədək tikinti və ticarət sektorunda fəaliyyət göstərən şəxslərə münasibətdə sosial sığorta haqqı minimum əməkhaqqının 50 faizindən 25 faizə, digər sahələrdə isə 25 faizdən 15 faizə endirilib. Eyni zamanda faiz dərəcələri Bakı şəhəri və regionlar üzrə differensiallaşdırılıb. Bunlarla yanaşı, fərdi peşə fəaliyyəti ilə məşğul olan, yəni öz vergi öhdəliklərini sabit qəbz almaqla yerinə yetirən şəxslərə münasibətdə sosial sığorta öhdəliklərinin də sabit qəbz almaqla yerinə yetirmələri ilə bağlı qanunvericilikdə dəyişiklik edilib.

Bununla da həmin şəxslərin sosial sığorta üzrə öhdəlikləri azaldılıb. Nəticə etibarilə, sabit qəbz əsasında fəaliyyət göstərən vergi ödəyiciləri artıq vahid qəbz almaqla həm vergi öhdəliklərini, həm də sosial sığorta öhdəliklərini yerinə yetirmiş olurlar. Bununla da göstərilən fəaliyyət üzrə vergi orqanlarına vergi hesabatı və sosial sığorta hesabatı təqdim etmirlər.

✍ *Sevinc*

# Türkiyədən 40 ölkəyə aviareyslər bərpa olunur

**Türkiyədə postpandemiya dövrü üçün nəzərdə tutulan addımlar mərhələli şəkildə həyata keçirilir. Bu tədbirlərdən biri də beynəlxalq aviareyslərin bərpasıdır. Bu məqsədlə artıq 92 ölkə ilə danışıqlar aparılır. Bu barədə Türkiyənin Nəqliyyat və İnfrastruktur naziri Adil Karaismailoğlu deyib.**

O bildirib ki, iyun ayından etibarən mərhələli şəkildə 40 ölkəyə aviareyslərin keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar artıq 15 ölkə ilə razılıq əldə olunub. İlk beynəlxalq aviareyslər iyunun 10-da Şimali Kipr Türk Cümhuriyyəti, Bəhreyn, Bolqarıstan, Qətər və Yunanıstana olacaq.

Nazir xarici ölkələrdən Türkiyəyə gələcək vətəndaşların hava limanlarında müayinədən keçirildikdən sonra 14 gün evlərində karantində qalacaqlarını bildirib.

# Rusiyada koronavirusla bağlı vəziyyət yaxşılaşır

**Rusiya Prezidenti Vladimir Putin ölkədə koronavirusla bağlı vəziyyətin yaxşılaşdığını bildirib.**



Bununla yanaşı, ölkə başçısı bütün regionlarda vəziyyətin nəzarətdə saxlamağın vacibliyini qeyd edib: "Hazırda bütün ölkə üzrə vəziyyət sabitləşir, yaxşılaşır. Sözsüz ki, daim və ən dəqiqliklə hər bir regionda vəziyyətə nəzarət etmək və dəyişən duruma operativ reaksiya vermək lazımdır". Putin Zabaykale regionunda koronavirus infeksiyasının dinamikasının mürəkkəb olduğunu vurğulayaraq regionda COVID-19 xəstələri üçün hospital tikməyi tapşırıb.

# Cənubi Qafqaz Boru Kəmərinin texniki operatorluğu SOCAR-a keçdi

**Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) texniki operatorluğu BP Eksploreyşn (Şahdəniz) Limited şirkətindən SOCAR-ın törəmə müəssisəsi olan SOCAR Midstream Operations MMC-yə keçib. Cənubi Qafqaz Boru Kəməri Şirkətindən (CQBKŞ) verilən məlumata görə, Cənubi Qafqaz Boru Kəməri Cənub Qaz Dəhlizinin əsas hissələrindən biridir.**



Texniki operatorluğun SOCAR-a keçməsi, "Şahdəniz-2" və Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) layihələrinə dair yekun investisiya qərarı çərçivəsində 2013-cü ilin dekabrında imzalanmış "Düzəliş Edilmiş və Yenilənmiş Boru Xətti Sahiblərinin Müqaviləsinə" uyğun olaraq həyata keçirilib. Müqavilədə CQBKG-nin tikintisinin başa çatmasının birinci ildönümündə SOCAR-ın CQBK-nın texniki operatoru olması nəzərdə tutulmuşdur.

Texniki operatorluğun ötürülməsi Azərbaycanda və Gürcüstanda CQBK-yə aid bütün obyektlərin əməliyyatlarını əhatə edir. Həm Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərinə, həm də CQBK-yə aid olan ümumi obyektlərin operatorluğunu isə bp şirkəti ümumi operator qismində davam etdirəcək. Səngəçal terminalının, BTC-nin və Qərb İxrac Boru Kəmərinin (QİBK) operatorluğunda heç bir dəyişiklik yoxdur, bu obyektlərin operatorluğunu bp şirkəti icra etməkdə davam edəcək.

Texniki operatorluğun keçidi prosesinin bütün aspektlərinin səmərəli şəkildə yerinə yetirilməsi üçün SOCAR və bp 2020-ci il ərzində birgə işləməyə davam edəcəklər.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev: "2015-ci ildən bəri biz Cənubi Qafqaz Boru Kəmərinin kommersiya operatoruyuq və kəmərin bütün kommersiya əməliyyatlarını yüksək səviyyədə həyata keçirmişik. İndi isə SOCAR boru xətti sahiblərinin müqaviləsində nəzərdə tutulduğu kimi kəmərin texniki operatorluğunu da öz üzərinə götürür.

Cənubi Qafqaz Boru Kəməri Şirkətinin səhmdarları kimi biz kəmərin texniki təhlükəsizlik göstəricilərindən daim məmnun olmuşuq, bu göstəricilər bizim sənayemizdə ən yüksəklər sırasındadır. bp şirkətinə çox yaxşı tərəfdaşlığına və operatorluğuna görə təşəkkür edirik.

Kəmərin yeni texniki operatoru kimi biz boru kəmərinin texniki təhlükəsizlik, etibarlılıq və ətraf mühitin qorunması sahəsində yüksək səviyyəsini saxlamaq üçün uğurlu beynəlxalq təcrübəmizdən istifadə edəcək və bütün tərəfdaşlarla sıx işləyəcəyik."

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz: "SOCAR-ın CQBK-nin yeni texniki operatoru olmasını məmnuniyyət hissi ilə qarşılayırıq. Şahdənizin və CQBK-nin ən iri payçısı kimi biz boru kəmərinin təhlükəsiz və etibarlı istismarının davamlı olmasını təmin etmək üçün SOCAR-la birgə işləməkdə davam edəcəyik.

Düşünürük ki, layihələrin təhlükəsiz və səmərəli şəkildə həyata keçirilməsində SOCAR-ın böyük təcrübəsi var. SOCAR bunu TANAP-ın dörd illik uğurlu tikintisi və onun ardınca təhlükəsiz istismarı zamanı nümayiş etdirib. Bundan əlavə, SOCAR artıq beş ildir ki, çox səmərəli şəkildə CQBK-nin kommersiya operatoru qismində çıxış edir. Biz keçid mərhələsinin təhlükəsiz qaydada və ümumilikdə qazın nəqli əməliyyatlarına heç bir təsir yaratmadan tamamlanmasını təmin etmək üçün planlaşdırılmış dəyişikliklərin idarə olunması prosesində SOCAR-a dəstək olacağıq.

Bütün ixrac sisteminin mükəmməl təhlükəsizlik göstəricilərinə nail olmasında əməkdaşlarımızın və işçi qüvvəmizin əzmkarlığı və fədakarlığı mühüm rol oynayıb, biz onlarla qürur duyuruq. Əminik ki, operatorluğun ötürülməsi ilə əməliyyatların təhlükəsizliyinə eyni dərəcədə yüksək diqqət və əməkdaşların iş icrasının eyni dərəcədə yüksək keyfiyyəti davam edəcək."

Cənubi Qafqaz Boru Kəməri şirkətinin səhmdarları bunlardır: BP (28,8%), TPAO (19%), SOCAR (10%), Cənub Qaz Dəhlizi (6.7%), PETRONAS (15,5%), LUKOYL (10%), NİKO (10%)

CQBK dünya səviyyəli boru kəməri sistemidir və 2006-cı ildən təhlükəsiz, etibarlı və səmərəli şəkildə fəaliyyət göstərməklə Azərbaycan, Gürcüstan və Türkiyənin regional bazarlarına qaz nəql edir.

Şahdəniz-2 çərçivəsində əlavə hasilat həcmlərini qəbul etmək məqsədilə CQBK sistemi Türkiyəyə (ildə 6 mlrd. kubmetr) və Avropaya (ildə 10 mlrd. kubmetr) Şahdəniz-2 həcmlərinin ixrac edilməsi üçün genişləndirilmişdir.

Boru kəmərinin genişləndirilmiş hissəsi 2018-ci ilin iyun ayından Türkiyəyə kommersiya qaz həcmlərinin nəqlinə başlayıb.

2020-ci ildən başlayaraq bu kəmər, ilk dəfə olaraq Şahdəniz qazının Avropaya ixrac edilməsinə imkan yaradacaq

2019-cu il ərzində CQBK-nin gündəlik orta ötürücülük gücü 29 milyon kubmetr qaz təşkil edirdi.

CQBK ixrac sistemi Azərbaycanda 443 km boru kəmərindən və Gürcüstanda 248 km boru kəmərindən ibarətdir. Sistemə həmçinin Səngəçal terminalında iki kompressor, Gürcüstanda iki kompressor stansiyası və iki nəzarət-ölçü qovşağı daxildir.

✍ *Hafta.az*

BÖLGƏ

# ŞAMAXININ bir kəndinin adı dəyişdirilir

**Milli Məclisin Toponimiya komissiyasına Şamaxı rayonunda bir kəndin adının dəyişdirilməsi təklifi daxil olub. Bunu APA-ya açıqlamasında Toponimiya komissiyasının sədri İsa Həbibbəyli deyib.**




O bildirib ki, Şamaxı Rayon İcra Hakimiyyəti həmin rayonun inzibati ərazi bölgüsünə daxil olan Saqiyan kəndinin adının dəyişdirilməsi ilə bağlı məsələ qaldırıb: "Biz araşdırdıq, həqiqətən də kəndin adının mənşəyi barədə müxtəlif versiyalar olduğu ortaya çıxdı.

Kəndin adının mənşəyi əslində bilinmir və müəyyən etmək çətindir. Ona görə də kəndin adının dəyişdirilməsi təklifinə müsbət yanaşmışıq. Toponomiya komissiyasının ayın 8-də keçiriləcək iclasında bu məsələyə baxılacaq və qərar qəbul ediləcək. Şamaxı Rayon İcra Hakimiyyətindən eyni zamanda kəndin adının hansı adla əvəzlənməsi ilə bağlı da təklif komissiyaya daxil olub. Təklifdə kəndin "Günəşli" adlandırılması münasib hesab edilib.

Coğrafi mövqeyi də kəndin belə adlandırılmasına imkan verir. Bundan əvvəlki dövrlərdə - 1994-2000-ci illərdə bir müddət bu kənd Günəşli adlandırılıb. Ayın 8-də toponomiya komissiyasının onlayn iclasında bununla bağlı qərar qəbul ediləcək".

# GÖYÇAYDA qanvermə aksiyası keçirilib

**Göyçayda qanvermə aksiyası keçirilib. Aksiya rayon icra hakimiyyətinin və rayon mərkəzi xəstəxanası publik hüquqi şəxsin birgə təşkilatçılığı ilə Respublika Qan Bankının Mingəçevir Regional Bölməsi tərəfindən Göyçay Gənclər Mərkəzində təşkil olunub.**



Koronavirus pandemiyası ilə əlaqədar respublikamızda tətbiq edilən karantin rejimi şəraitində talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün qan ehtiyatının yaradılması məqsədilə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çağırışına qoşulan Göyçay rayonunun sakinləri qanvermə aksiyasında fəal iştirak ediblər. Karantin rejiminin tələblərinə əməl etməklə təşkil olunan humanist aksiyada onlarca könüllüdən, xüsusilə gənclərdən hərtərəfli müayinədən sonra qan götürülüb. Toplanan qan nümunələri laboratoriyada müayinə edildikdən sonra Qan Bankına təhvil veriləcək.

# GƏNCƏDƏ icra başçısı abadlıq işlərinin gedişatı ilə tanış olub

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov abadlıq işlərinin aparıldığı Şah İsmayıl Xətai və Nizami Gəncəvi prospektləri, habelə Məmməd Xələfov küçəsində olub. Burada işlərin gedişatı ilə maraqlanıb.**




Adıçəkilən ərazilərdə çoxmənzilli binaların həyətləri abadlaşdırılır, yol kənarındakı yaşıllıq zolaqları yenilənir, qazon səpilir. Ağaclara aqrotexniki qulluq göstərilir, yola tərəf əyilərək yol nişanlarının qarşısını kəsən budaqlar budanır. Bununla yanaşı səkilərdə səligə-səhman yaradılır, yeni bardür daşları düzülür, ehtiyac olan hissələrin asfalt örtüyü bərpa edilir. Məmməd Xələfov küçəsinə də yeni asfalt örtüyü çəkilir. Əraziyə Gəncə Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin xeyli sayda canlı qüvvəsi və texnikası cəlb olunub. Xəbər verdiyimiz kimi, ölkədə koronavirus pandemiyasına qarşı mübarizənin daha da gücləndirilməsi məqsədilə Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq modul tipli xəstəxanaların tikintisinə başlanılıb. Bu xəstəxanalardan biri də Gəncədə inşa edilir. Yeni inşa edilən modul tipli xəstəxananın həyəti və ətrafında da abadlıq işləri həyata keçirilir. İşlərin gedişatına Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən ciddi nəzarət olunur.

Niyazi Bayramov iş icraçıları ilə söhbət edib, işlərin vaxtında yekunlaşması istiqamətində aidiyyatı şəxslərə öz tapşırıq və tövsiyələrini verib.

# ŞƏMKİRDƏ sanitar-karantin qaydalarını pozan çay evi aşkarlanıb

**Şəmkirdə sanitar-karantin qaydalarını pozan çay evi aşkarlanıb. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə şəhərindəki regional qrupundan hafta.-az-a verilən məlumata görə, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edilən sanitar-karantin rejim qaydalarının təmin olunması istiqamətində Şəmkirdə rayon Polis Şöbəsinin əməkdaşları tədbirləri davam etdirir.**



RPŞ-nin əməkdaşları inzibati ərazilərində xidmət apararkən zamanı rayonun Aşağı Seyfəli kəndi ərazisində Ricat Qafarovun işlətdiyi çay evində müştərilərin koronavirusa görə qadağan edilən edilmiş qəlyan avadanlıqlarından istifadə etməsi müəyyən edilib. Bundan başqa çay evinə baxış zamanı müştərilərin sosial məsafə gözləmədiyi, tibbi maskalardan da istifadə etmədikləri də aşkar edilib. Obyektdə olan ümumilikdə 5 nəfər saxlanılaraq RPŞ-yə gətiriliblər. Karantin qaydalarını pozan obyekt sahibi və müştərilər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi protokol tərtib olunub və onlar müvafiq qaydada ciddi cərimə ediliblər.

# İqlim dəyişmələri ilə bağlı portal yaradılır

Mərkəzi Asiya ölkələrini əhatə edən bu resursun yaradılmasında məqsəd iqlim dəyişmələrinə qarşı birgə mübarizə aparmaqdır

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Ekologiya və ətraf mühitin mühafizəsi

***Bu gün dünya ölkələrini narahat edən iqlim və onun dəyişmələri barədə müxtəlif tədbirlər həyata keçirilməkdədir. Amma etiraf etmək lazımdır ki, xüsusi informasiya resurslarının inkişaf etdirilməsi heç də həmişə səmərəli və rentabelli olmur. İqlim dəyişmələrinə qarşı birgə mübarizə aparan, hava şəraiti və təbii şəraiti oxşar olan ölkələrdə bu məsələ xüsusilə aktualdır. Məhz bu səbəbdən Mərkəzi Asiya ölkələri MAİİP - Mərkəzi Asiya iqlim informasiya platforması adlı ortaq resurs yaratmağı qərara alıblar.***



Məlumat üçün bildirək ki, "Aral dənizi hövzəsində iqlim dəyişməsinə uyğunlaşma və onun nəticələrinin yumşaldılması proqramı" layihəsi çərçivəsində Mərkəzi Asiya Regional Ekoloji Mərkəzin dəstəyi ilə MAİİP resursunun yaradılması üzrə işlər 2020-ci il sentyabr ayına qədər başa çatdırılmalıdır. Bu platformaya inteqrasiya edilmiş interaktiv vasitələr və elektron təlim imkanları daxil olacaq. Portalın əsas məqsədi iqlim dəyişmələrinə dair regional, qlobal və yerli məlumatlardan rahat istifadəni təmin etmək, habelə bu məlumatın infoqrafika, xəritə və başqa formalarda işlənməsidir. Resurs həm də qabaqcıl təcrübə, tədbirlər və digər məsələlərə dair elmi məqalələr, məruzələr təqdim edəcək.

İndiyə qədər MAİİP-ə 11 mindən çox sənəd yüklənib. Resursun interfeysi ingilis, rus, qazax, qırğız, tacik, türkmən və özbək dillərində hazırlanıb. Platforma müxtəlif hədəf qrupları: fermerlər, tədqiqatçılar, ekologiya fəalları və başqaları üçün iqlimlə bağlı informasiya tələbatının təmin edilməsinə yönəlib.

Hazırda Mərkəzi Asiya ölkələrində əlaqədar tərəflər və təsisatlarla MAİİP barədə məsləhətləşmələr aparılır. Bu məsləhətləşmələrin əsasında onlayn-resursun təkmilləşdirilməsi və təbliğ edilməsi nəzərdə tutulur. Qeyd edək ki, XX əsrin sonlarından etibarən dünya alimlərini, ekoloqları və ətraf mühiti mühafizə işçilərini ciddi şəkildə narahat edən əsas problemlərdən biri qlobal iqlim dəyişikliyidir. Çünki ardı-arası kəsilməyən təbii fəlakətlər və yaxud da son illər qış və yay fəsillərində ekstremal iqlim şəraitinin hökm sürməsi diqqətdən yayınmır. Anomal iqlim dəyişikliyi nəticəsində yaranan təbii fəlakətlərin miqyası isə ildən-ilə artmaqda davam edir. Birləşmiş Millətlər Təşkilatının (BMT) son illər iqlim dəyişikliyi ilə mübarizəyə həsr etdiyi hesabatlarında da göstərilir ki, Yer kürəsinin temperaturu son 150 ildə 1 dərəcə yüksəlib.

Bu yüksəlişin 50 faizi son 25 ilə təsadüf edir. Mütəxəssislərin fikrincə, Yer kürəsində temperatur bu sürətlə yüksəlməkdə davam edərsə, 2050-ci ilə qədər hərarət 2-2,5 dərəcə, 2100-cü ilə qədər isə 6 dərəcəyə qədər yüksələ bilər. Bu isə yaxın 100 ildə planetimizdə suda və quruda yaşayan bir sıra canlıların tamamilə yox olmasına gətirib çıxarar. Bütün bunlart bir daha ona işarədir ki, artıq ətraf mühitin qorunması üçün insanlar bütün gücünü səfərbər etməlidir. Çünki iqlim dəyşikliyi nəinki insanların, hətta bütün canlıların varlığı üçün real təhlükədir.

Qeyd edək ki, artıq ötən əsrdən başlayaraq bu istiqamətdə müəyyən tədbirlər həyata keçirilməyə başlanıb. Belə ki, 1990-cı ildə Nobel mükafatı laureatı olan qırx doqquz alim hələ o zaman bəyan etmişdi ki, "qlobal istiləşmə XXI yüzilliyin ən ciddi ekoloji təhlükəsidir və biz gələcək nəsillərin bu təhlükə ilə üzləşməyəcəklərinə əmin olmaq üçün indidən ölçü götürməliyik".

1997-ci ilin dekabrında isə Yaponiyanın Kioto şəhərində BMT-nin iqlimin dəyişməsi üzrə üçüncü konfransı keçirilib. Həmin konfransda dünyanın 171 ölkəsinin dövlət nümayəndələri Yer kürəsinin temperaturunun və iqlimin dəyişməsinə səbəb olan karbon qazı və digər çirkli məişət tullantılarının azaldılması üzrə saziş (Kioto protokolu) imzalayıblar. Həmin sazişə görə, dünyanın sənaye cəhətdən inkişaf etmiş 38 ölkəsi atmosferə karbon qazı buraxılmasını əhəmiyyətli dərəcədə azaltmaq barədə qərar qəbul ediblər.

Xatırladaq ki, 2000-ci ilin noyabr ayında Haaqa şəhərində BMT və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təşkil olunmuş İqlim Dəyişikliyi üzrə Beynəlxalq Konfransda istixana effekti probleminə toxunularaq bildirilib ki, karbon qazının atmosferdə olan miqdarı artmaqda davam edərsə, temperaturun yüksəlməsi nəticəsində 100 ildən sonra qlobal fəlakətlərin miqyası daha da artacaq. Bəzi amerikalı tədqiqatçılar isə1980-ci illərdə belə güman edirdilər ki, XXI əsrin birinci rübünün sonuna kimi Yer atmosferinin illik orta temperaturu 1,5 °C, Arktikada havanın maksimal yay və qış temperaturları isə 10-15°C artacaq. Bu, Yer iqliminin kəskin surətdə dəyişməsinə səbəb olacaq. Bu halda əbədi donuşluq zonasının cənub sərhədləri xeyli şimala tərəf çəkiləcək, Arktikadakı buzların çox hissəsi əriyəcək, Qrenlandiyanın buz örtüyü ildə 0,5-0,7 metr azalacaq, Antarktidadakı şelf buzlaqları dağılmağa başlayacaq. Mülayim qurşaqda qlobal istiləşmənin təsiri bundan az hiss olunacaq.

Alimlərin fikrincə, kontinental buzlaqların tam əriməsi və suyun istidən genişlənməsi nəticəsində okeanların səviyyəsi indikinə nisbətən 70-80 santimetr artacaq, hazırda milyonlarla insanın məskunlaşdığı sahilyanı yaşayış məntəqələri su altında qalacaq. Çayların deltaları və aşağı axarları ətrafında yerləşmiş münbit torpaqların su altında qalması nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı kəskin surətdə aşağı düşəcək və bütün dünyada ciddi ərzaq qıtlığı başlayacaq. Siklonların və antisiklonların illik hərəkət trayektoriyaları dəyişəcək və bu, iqlimin daha da dəyişməsinə, bir çox bitki və heyvan növlərinin nəslinin kəsilməsinə səbəb olacaqdır.

İqlim Dəyişmələri üzrə Beynəlxalq Komissiyanın hesablamalarına görə, əgər istilik effekti yaradan qazların havaya atılmasını azaltmaq üçün radikal tədbirlər görülməzsə, atmosferdə karbon qazının miqdarının iki dəfə artması nəticəsində yaşadığımız əsrin sonunda qlobal istiləşmə 2,5 °C və bəlkə də 5,8- 6°C olacaqdır. Bu rəqəm arxasında regional, hətta qlobal xarakterli real coğrafi dəyişikliklər durur.

Bəzi tədqiqatçılar və bir qrup alim isə yuxarıda deyilənlərin tam əksinə olaraq Antarktidanın və Qrenlandiyanın materik buzlarının əriyəcəyi fərziyyəsinin yanlış olduğunu iddia edirlər. Mütəxəssislər qeyd edirlər ki, Antarktidanın buz örtüyü 35 milyon il əvvəl əmələ gəlmiş və o vaxtdan Yer kürəsində indikindən də güclü istiləşmələr zamanı nəhəng buz təbəqələri salamat qalmışdır. Həmin tədqiqatçılar güman edirlər ki, qlobal istiləşmə Antarktidanın və Qrenlandiyanın buz örtüklərinin bir qədər kiçilməsinə səbəb olacaqdır. Okean səviyyəsi isə 50 santimetrə qədər arta bilər ki, bu da bəşəriyyət üçün böyük təhlükə yaratmayacaq.

Yeri gəlmişkən xatırladaq ki, son illər Azərbaycanda da qlobal iqlim dəyişmələrinin təzahürləri hiss olunmaqdadır. Məsələn, temperatur artımı regionlardan asılı olaraq qeyri-bərabər paylanır. Son 10 illiklərdə Azərbaycan ərazisində kiçik dağ çaylarında sel və daşqınların sayı və gücü artıb. Bütün bunları nəzərə alan Azərbaycan hökuməti iqlim dəyişmələri üzrə milli səviyyədə fəaliyyətləri daha da genişləndirib. Belə ki, Azərbaycan Respublikası Milli Məclisi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına 1995-ci ildə qoşulub.

Ölkəmiz İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Əlavə 1 qrupuna daxil olmayan tam hüquqlu tərəf kimi İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası qarşısında istilik effekti yaradan qaz tullantılarının kadastrının hazırlanması, müntəzəm olaraq yeniləndirilməsi, milli məlumatlarin hazırlanması kimi öhdəliklər götürmüş və bu öhdəliklər sistemli şəkildə yerinə yetirilmişdir. Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına əlavə olan Paris Sazişini 22 aprel 2016-cı ildə imzalamış və həmin ilin oktyabr ayında ratifikasiya edib. Bundan başqa, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına özünün Nəzərdə Tutulan Milli səviyyədə müəyyən edilmiş Töhfələrində qlobal iqlim dəyişmələrinin qarşısının alınması təşəbbüslərinə töhfə olaraq 1990-cı baza ili ilə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürüb və hazırda həmin tullantıların azaldılması üçün müvafiq layihələrin reallaşdırılması davam etdirilir.

✍ ***Sevinc***

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Formal məşğulluğa keçidin sürətlənməsində sahibkarlardan gözləntilər çoxdur

**Məşğulluğun qorunması ilə yanaşı, xüsusən də əmək müqavilələrində artım tempinin, hətta pandemiya dövründə də davam etməsi və bu artımın böyük əksəriyyətinin özəl sektora aid olması pozitiv sosial-iqtisadi məqamlardan biri oldu.**



Bu, eyni zamanda, ölkədə qeyri-formal məşğulluqdan formal məşğulluğa keçidin sürətlənməsində sahibkarların əhəmiyyətli rolunu göstərir və ona görə də bu sahədə onlardan gözləntilər çoxdur.

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Azərbaycanda Amerika Ticarət Palatası ("AmCham Azərbaycan") nümayəndələri ilə birgə keçirilən vebinarda bildirib.

"AmCham Azərbaycan"ın prezidenti Nuran Kərimov aparılan sosial islahatların Palata tərəfindən maraqla izlənildiyini deyib. O, belə görüşlərin nazirlik və özəl sektor arasında əmək bazarına dair islahatlara dair fikir və məlumat mübadilələri aparmağa əlverişli imkan yaratdığını bildirib.

S.Babayev vurğulayıb ki, Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi inkişaf strategiyasının prioritetlərindən biri olaraq sahibkarlığın inkişafını dövlət bütün istiqamətlər üzrə ardıcıl olaraq dəstəkləyir. Bunun müsbət nəticəsi kimi, milli iqtisadiyyatda özəl sektorun rolu getdikcə artır.

Pandemiya dövründə məşğulluğa və sosial rifaha dəstək tədbirlərini qeyd edən S.Babayev ümumilikdə 4,8 milyon insanın və ya əhalinin 48 faizə qədər hissəsinin bu tədbirlərlə əhatə olunduğunu, sahibkarların da dövlətin dəstəyi ilə təmin olunduqlarını bildirib. O qeyd edib ki, eyni zamanda, bu dövrdə məşğulluğun qorunmasında, eləcə də həssas qruplarla bağlı sosial aksiyalarda sahibkarların yaxından iştirakı, dövlət siyasətinə dəstək verməları, sosial məsuliyyət mövqeyindən həmrəylik nümayiş etdirmələri ilə bağlı ölkəmizdə uğurlu bir təcrübə formalaşdı. Məhz həmin mövqedən sahibkarlar, o cümlədən "AmCham Azərbaycan"da təmsil olunan şirkətlər qeyri-formal məşğulluğun qarşısının alınması, kölgə iqtisadiyyatının daha da azaldılması proseslərində qarşıdakı dövrdə daha fəal şəkildə öz töhfələrini verə bilərlər.

Qeyri-formal məşğulluğa qarşı mübarizə tədbirlərindən bəhs edən S.Babayev bildirib ki, bu sahədə məsuliyyət tədbirlərinin görülməsi ilə yanaşı, formal məşğulluğa keçidi stimullaşdıran təsirli mexanizmlər də tətbiq olunur. Minimum əməkhaqqının artırılması, bir sıra vergi güzəştləri, vergi prosedurlarının sadələşdirilməsi, pandemiya dövründə sahibkarların dəstəklənməsi, eləcə də bu günlərdə daha bir sosial-iqtisadi dəstək kimi, məcburi dövlət sosial sığorta haqqı dərəcələrinin endirilməsi və s. bunun əyani nümunələridir.

Nazir "Əmək müqaviləsi bildirişi" altsisteminin funksional imkanlarının artırıldığını, altsistemdə işəgötürənlər üçün vacib məlumatların, xəbərdarlıqların yerləşdirildiyini qeyd edib. O, "Məşğulluq" altsisteminin işəgötürənlər üçün əhəmiyyətini diqqətə çatdırıb, "AmCham Azərbaycan"da təmsil olunan şirkətlərin də işçi qüvvəsinə olan tələbatlarının ödənilməsi üçün bu innovativ imkanlardan maksimum yararlanmalarını tövsiyə edib.

Əmək, məşğulluq sahəsində aparılan islahatları diqqətə çatdıran S.Babayev bildirib ki, islahatlarda sahibkarlarla sosial dialoqa əsaslanan əməkdaşlığa xüsusi önəm verilir və bu amil ümumən əmək bazarının inkişafında hədəflərə nail olunması üçün vacibdir.

Görüşdə əmək bazarında ortaya çıxan yeni məsələlər, əmək münasibətlərində yaranan yeni forma və yanaşmalarla bağlı olaraq əmək qanunvericiliyinin təkmilləşdirilməsi üçün aparılan işlər, Əmək Məcəlləsinə təklif edilən əlavə və dəyişikliklər barədə də Palata üzvlərinə məlumat verilib.

ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberger pandemiyaya qarşı mübarizə aparılması, əhalinin sağlamlığının mühafizəsi sahəsində Azərbaycanda aparılan işlərin, pandemiya dövründə iqtisadiyyata və sosial rifaha dəstək tədbirlərinin təqdirəlayiq olduğunu bildirib. O, ölkəmizdə dövlət tərəfindən sahibkarlığın dəstəklənməsini, həmçinin əmək və məşğulluq sahəsində aparılan islahatlarda sahibkarlarla əməkdaşlığa, sosial dialoqa önəm verilməsini də müsbət dəyərləndirib.

Palatanın nümayəndələri belə görüşlərin əhəmiyyətini vurğulayıblar. Görüş əmək və məşğulluq sahəsində islahatlara, əmək qanunvericiliyinin təkmilləşdirilməsinə dair fikir mübadiləsi ilə davam edib, rəy və təkliflər ifadə olunub. Nazir Palata üzvlərinin suallarını cavablandırıb.

1996-cı ildə yaradılan "AmCham Azərbaycan" Azərbaycanda fəaliyyət göstərən, xarici və yerli təşkilatların maraqlarını dəstəkləyən və təşviq edən aparıcı biznes assosiasiyasıdır. Qurum Azərbaycan iqtisadiyyatının hər bir sektorunda fəaliyyət göstərən 250-dən çox üzv şirkəti özündə birləşdirir və ölkəmizdə bütün xarici investisiyaların təxminən 80%-ni, yerli investisiyaların mühüm qismini təmsil edir.

✍ ***Hafta.az***

# Daha 262 yeni nəfər koronavirusa yoluxub, 2 nəfər ölüb

**Azərbaycanda 262 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 72 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a bildirlib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxan 1960 və 1963-cü il təvəllüdlü iki nəfər vəfat edib.**




Hazırkı dövrədək ölkədə 6 522 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 3 737 nəfər müalicə olunaraq sağalıb, 78 nəfər vəfat edib, 2 707 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 64 nəfərin vəziyyəti ağır, 75 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 322 574 test aparılıb.

# İyunun 6-7-də keçirilməsi nəzərdə tutulan buraxılış imtahanlarının vaxtı dəyişib

**Nazirlər Kabinetinin 04 iyun 2020-ci il tarixli 191 nömrəli qərarına əsasən, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı müəyyən məhdudiyyətlər tətbiq olunacaq.**

Dövlət İmtahan Mərkəzindən hafta.az-a verilən xəbərə görə, Nazirlər Kabinetinin qeyd olunan qərarına uyğun olaraq DİM tərəfindən 6 və 7 iyun 2020-ci il tarixlərində keçirilməsi nəzərdə tutulan imtahanlar müvafiq olaraq 10 və 11 iyun tarixlərində keçiriləcək. Yəni, iyunun 6-da imtahanda iştirak etməli olan şəxslər iyunun 10-da, iyunun 7-də imtahanda iştirak etməli olan şəxslər isə iyunun 11-də imtahan verəcəklər. İmtahan keçiriləcək şəhər və rayonların ardıcıllığı, imtahanın başlanma saatı və imtahan iştirakçısının buraxılış vərəqəsində göstərilən binaya gələcəyi vaxt olduğu kimi qalır. "İmtahana buraxılış vərəqəsi" çap etmiş şəxslərin yenidən buraxılış vərəqəsi çap etməsinə ehtiyac yoxdur.

# Daşkəsəndə qardaş bacısını qətlə yetirib



**Daşkəsəndə qardaş bacısını qətlə yetirib. Daşkəsən Rayon Prokurorluğundan verilən məlumata görə, aparılmış araşdırmalarla 2000-ci il təvəllüdlü Elvin Abbasovun qısqanclıq zəminində bacısı, 1996-cı il təvəllüdlü Elgün Abbasovanın başına odun parçası vurmaqla onu qətlə yetirməsinə əsaslı şübhələr müəyyən edilib.** Faktla bağlı Daşkəsən Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, E.Abbasov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Koronavirusa yoluxmanın çox olduğu Lənkəranda son durum






***Nazirlər Kabineti yanında Operativ Qərargahın dünənki brifinqində şənbə və bazar günlərində karantin rejiminin gücləndirilməsi ilə bağlı qərar veriləcəyi bildirildi. Buna səbəb isə 300-dən artıq insanın koronavirusa yoluxub, ölənlərin də sayında artımın müşahidə olunması idi.***



Bundan əlavə, insanların maskasız gəzməsinə görə cərimələr tətbiq olunacaq. Paytaxt Bakıda maska taxanlar, demək olar ki, metrodan istifafə edənlərdir. Digər yerlərdə maska taxmaq "günah" sayılır...

**Bəs bölgələrdə vəziyyət necədi?**

Hafta.az olaraq yolumuzu ölkənin ən gözəl guşələrindən olan Lənkərana saldıq. Lənkərana gedənlər birbaşa bazara üz tuturlar. Bu bölgəyə xas olan sitrus meyvələri ilə yanaşı, balıq alanlar da kifayət qədərdir. Qeyd edək ki, Lənkəran virusun ən çox yayıldığı rayonlardandır. Bir sözlə, bu bazarda insan əlindən tərpənmək olmur.

**Bəs maska istifadə edirlərmi?**

Olduğumuz vaxt ərzində barmaqla sayılası qədər adam maska taxıb. Maska taxmamaqla yanaşı, insanlar alış-veriş məqsədilə bir yerə toplaşmış olur. Məsələn, meyvə satan xalanın vitrinin qarşısında, ən azı, 20 nəfər toplaşıb. Sosial məsafə, maska söhbətləri isə təmiz yaddan çıxıb. Polis nəzarəti də yoxdur...

Yaxınlaşıb soruşduq. Görəsən, təhlükədən qorxurmu, maskadan niyə istifadə etmir?

***- Ay xala, maska niyə taxmırsız, gündə yüzlərlə adamın içindəsiniz...***

- Ürəyim sıxılır, taxa bilmirəm, həm də kasıbçılıqdı. Maska da bahadı. Mən nə qazanıram ki, gündə iki-üç dəfə maska dəyişim? Şəklimi də çəkmə... Sonra bu bazardan da qovularıq, mənim balam, Allah səni saxlasın... "Allah sizi də qorusun", - deyib bazara yaxın yerləşən "Kapital Bank"ın qarşısına keçirəm. Burada iynə atsan, insan əlindən yerə düşməz. Sosial məsafə gözlənilməsə də polislər imkan vermir ki, insanlar içəriyə daxil olsunlar. Növbəlilik prinsipinə əməl olunur. Lənkəranın məşhur yerlərindən biri də "Dosa" parkıdır. Bu parkda yaşlı insanlar dincəlir, bu gün onlara rast gəlmədik. Parkın girişində heç bir qaydaya əməl etməyən insanlar var. Uşaqlarını istirahət üçün gətiriblər. Lənkəranın ən məşhur küçələrində də olduq. İnsanlar, sanki koronavirusun olmaması kimi yaşayırlar. Bu şəhərdə maskadan istifadə halları çox azdır.

Xatırladaq ki, Lənkəran şəhərinə Astara rayonundan gələnlər daha çoxdur. Astara rayonu sərhədə daha yaxındır. Həmçinin statistikaya görə, cənub zonasında ən çox yoluxma Lənkəran, Astara rayonlarında qeydə alınıb.

✍ ***Ruzbeh***

# Milli Məclisin Səhiyyə komitəsi toplandı



**İyunun 4-də Milli Məclisin Səhiyyə komitəsinin növbəti iclası keçirilib. Komitə sədri Əhliman Əmiraslanov əvvəlcə koronavirus (COVİD-19) pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması, bu sahədə həyata keçirilən tədbirlər barədə danışıb.**

Bu sahədə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) fəaliyyətini yüksək qiymətləndirən komitə sədri ölkə vətəndaşları tərəfindən karantin rejiminin yumşaldılmasından sui-istifadənin yolverilməz olduğunu vurğulayıb. Sonra iclasda "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə edilib. Əhliman Əmiraslanov sənədi ətraflı şərh edərkən qeyd edib ki, qanun layihəsi ölkə Konstitusiyasının 94-cü maddəsinə uyğun olaraq, Azərbaycanda insan orqan və toxumalarının donorluğunun və onların transplantasiyasının hüquqi əsaslarını, donorların, resipiyentlərin, orqan transplantasiyası sahəsində fəaliyyət göstərən tibb müəssisələrinin, tibb işçilərinin hüquqlarını və vəzifələrini müəyyən edəcək, bu sahədə yaranan münasibətləri tənzimləyəcək. 5 fəsil, 35 maddədən ibarət sənəddə qanunun tətbiq dairəsi, donorluğun və transplantasiyanın əsas prinsipləri, qayda və şərtləri, bu sahəyə yardımın təşkili, transplantasiya işini həyata keçirən mütəxəssislərin hüquq və vəzifələri, resipiyentlərin uçotu, donorluq işinin koordinasiyası, donor orqanlarının resipiyentlər arasında bölüşdürülməsi kimi məsələlər ətraflı ehtiva olunub.

Komitə üzvləri Rəşad Mahmudov, İlham Məmmədov, Soltan Məmmədov, Məlahət İbrahimqızı, dəvət olunmuş mütəxəssislər qanun layihəsi ilə bağlı fikirlərini bildiriblər, bu sahədə dünya ölkələrinin qabaqcıl təcrübəsindən danışıblar.

Gündəliyin ikinci məsələsini təqdim edən Milli Məclis Aparatının İqtisadi və sosial qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Yerin təki haqqında" və "Ətraf mühitin mühafizəsi haqqında" qanunlara təklif olunan dəyişiklikləri diqqətə çatdırıb. Bildirib ki, bu dəyişikliklər ekoloji təhlükəsizliyin qorunması məqsədi daşıyır.

İclasda gündəliyin üçüncü məsələsinin - "Dövlət rüsumu haqqında" qanuna təklif olunan dəyişikliklərin (birinci oxunuş) mahiyyətini açıqlayan Məhəmməd Bazıqov diqqətə çatdırıb ki, "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda dəyişiklik edilməsi barədə" 27 iyun 2019-cu il tarixli qanunda tibb müəssisələrinin akkreditasiyası nəzərdə tutulub. Bunu TƏBİB-in tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, digər tibb müəssisələrinə münasibətdə isə Səhiyyə Nazirliyi həyata keçirəcək. Sənəddə ambulator xidmət göstərən tibb müəssisələrinin akkreditasiyasının keçirilməsinə görə tutulan dövlət rüsumunun məbləği ərazi (regional) prinsipinə görə, stasionar xidmət göstərən tibb müəssisələrinin akkreditasiyasına görə tutulan dövlət rüsumunun məbləği isə çarpayı sayına görə diferensiallaşdırılır. Tibb müəssisələrinin akkreditasiyasının məqsədi əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin, əhalinin yüksək keyfiyyətli tibbi xidmət göstərən müəssisə tərəfindən müayinə və müalicə olunması üçün seçim hüququnun təmin edilməsidir.

Ətraflı müzakirələrdən sonra hər 3 qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

✍ ***Sultan***

# Bakıda zülmkar qayınananı öldürən gəlinə 16 illik həbs cəzası

**Bakı Ağır Cinayətlər Məhkəməsində qayınanasını qətlə yetirməkdə ittiham olunan Bakı şəhər sakini, 36 yaşlı Mədinə Qreçnevanın cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb.**

Hafta.az-ın Virtualaz.org-a istinadən xəbərinə görə, hadisə ötən il sentyabrın 18-də paytaxtın Xətai rayonu Telnov küçəsi 3, mənzil 91 ünvanında baş verib.

70 yaşlı Valentina Qreçnevanın oğlu Alik Qreçnev işdən evə qayıdan zaman anasının qan içində olduğunu görüb. Hadisə yerinə gələn hüquq-mühafizə orqanlarının əməkdaşları yaşlı qadının baş nahiyəsində bir neçə xəsarət aşkar ediblər. Keçirilən əməliyyat-istintaq tədbirləri zamanı ailənin gəlini Mədinə Qreçneva şübhəli şəxs qismində saxlanılıb. İlkin dindirmə zamanı M.Qreçneva cinayəti etiraf edib.



M.Qreçneva barəsində Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) və 120.2.9-cü (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə, habelə adam oğurluğu və ya girov götürülməsi ilə bağlı adam öldürmə) maddəsi ilə ittiham irəli sürülüb. İlkin dindirmə zamanı M.Qreçneva törətdiyi əməli etiraf edib. Evliliyin ilk günündən etibarən qayınanasının onunla yola getmədiyini, oğlundan onu boşamasını tələb etdiyini deyib. Ailədaxili narazılıqlar səngimək bilməyib və Mədinə oğlunu da götürərək ər evini tərk edib. Amma həyat yoldaşı ilə əlaqəsini kəsməyib. Qayınanası evdə olmadığı zamanlar əri Aliklə evdə görüşüb. Mənzilin açarının biri Mədinədə olub. Növbəti dəfə evə gələrkən dəhlizdə qayınanası ilə rastlaşıb. Qayınana-gəlin arasında yaranan mübahisə qansız ötüşməyib. Məhkəmə prosesində M.Qreçneva ona elan olunmuş ittihamla özünü təqsirli bilməyib. İfadəsində qayınanasını öldürmək niyyəti olmadığını, hadisə baş verən gün 70 yaşlı Valentinanın ona bıçaqla hücum çəkdiyini, özünü qorumaq üçün masadakı boş araq şüşəsi ilə onun başına zərbə vurduğunu göstərib: "Bir əlində bıçaq, bir əlində də boş dixlofos qabı üstümə hücum çəkdi. Onun hücumunu dəf etmək üçün araq şüşəsi ilə dörd dəfə başına vurdum. Üzərimə gəldiyi üçün özümü müdafiə etmişəm".

M.Qreçnevanın, həmçinin ifadəsində birgə yaşadıqları dövrdə qayınanasının evi zibilxanaya çevirdiyini, mütəmadi olaraq spirtli içki içdiyini, onu heç vaxt gəlin kimi qəbul etmədiyini, hətta oğlu Danielinin atasının Alik olmadığını iddia edib. Zərərçəkmiş Alik Qreçnov məhkəməyə verdiyi ifadəsində işdən evə qayıdan zaman anasını dəhlizdə qan içərisində tapdığını deyib. O, məhkəmədən anasının qatilinə ən ağır cəza verilməsini tələb edib. Məhkəmənin hökmü ilə M.Qreçneva cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 16 il müddətinə azadlıqdan məhrum edilib.

✍ ***Hafta.az***

# DMX yanında Məşvərət Şurasının iclası keçirilib

**İclasda ölkəmizdə fəaliyyət göstərən bir sıra şirkət rəhbərləri və iş adamları iştirak ediblər. Dövlət Miqrasiya Xidmətinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Vüsal Hüseynov pandemiya dövründə Nazirlər Kabineti yanında Operativ Qərargahın qərar və tövsiyələrini rəhbər tutaraq, fəaliyyətin mövcud vəziyyətə uyğun təkmilləşdirilməsi, müvafiq prosedurların sadələşdirilməsi, əcnəbi və vətəndaşlığı olmayan şəxslərin rahatlığının təmini istiqamətində görülən işlərdən danışıb.**



Bildirib ki, ölkəmizdə olduğu yer üzrə qeydiyyata alınmış, olma müddəti bitən və məlum səbəblərdən ölkəni tərk edə bilməyən əcnəbilərin ölkədə müvəqqəti olma müddəti heç bir müraciət tələb olunmadan avtomatik uzadılıb. Notariat və ya ona bərabər tutulan qaydada təsdiq edilməsi nəzərdə tutulmuş müvafiq sənədləri təqdim edə bilməyən şəxslərin müraciətləri belə təsdiq olmadan da qəbul edilib. İş adamları pandemiya dövründəki fəaliyyətləri barədə məlumat veriblər. Dövlət Miqrasiya Xidməti tərəfindən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə göstərilən xidmətləri yüksək qiymətləndirərək təklif və tövsiyələrini səsləndiriblər. Videokonfrans müzakirələrlə davam etdirilib.

✍ ***Hafta.az***

# 100-ə yaxın proqram iştirakçısına aktivlər təqdim edilib



**Prezident İlham Əliyevin təşəbbüsünə uyğun olaraq, banklar tərəfindən özünüməşğulluq proqramına dəstək məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mərkəzi Bank və Banklar Assosiasiyası arasında əməkdaşlıq çərçivəsində proqramı iştirakçılarına aktivlərin verilməsi davam edir.** Artıq 100-ə yaxın proqram iştirakçısına seçdikləri fəaliyyət sahəsi üzrə kiçik bizneslərini qurmaq üçün banklar tərəfindən mal və materiallar formasında aktivlər təqdim edilib. Ümumilikdə isə əməkdaşlıq çərçivəsində respublika üzrə təlimləri uğurla başa vuran və biznes planlarını müdafiə etmiş 1000 nəfər proqram iştirakçısının banklar tərəfindən aktivlərlə təmin edilməsi nəzərdə tutulub.

# "Qaçqınkom"un vəzifəli şəxsləri barəsində cinayət işi başlanılıb

**Ölkəmizdə uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarının icrası çərçivəsində qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi və mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına, onların mövcud problemlərinin həllinə xüsusi həssaslıqla yanaşılır.**



Bununla yanaşı, dövlətin bu sahədə gördüyü işlərə kölgə sala biləcək qanunsuz hallara qarşı prokurorluq orqanları tərəfindən ən ciddi tədbirlər davam etdirilməkdədir.

Həyata keçirilməkdə olan belə tədbirlərdən biri kimi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin ("Qaçqınkom") vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş material araşdırılıb. Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinindən hafta.az-a bildirilib ki, keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Komitənin vəzifəli şəxslərinin öz vəzifə səlahiyyətlərindən sui-istifadə edərək paytaxtın Binəqədi rayonu Həmzə Babaşov küçəsində yerləşən Təcili Tibbi Yardım stansiyasının tikintisi yarımçıq qalmış binalarında məskunlaşmış çoxsaylı qaçqın və məcburi köçkün ailələrinə mənzillərin qanunsuz verilməsi üçün onlardan müxtəlif məbləğlərdə pulu dəfələrlə təkrar rüşvət kimi tələb edib almalarına şübhələr üçün əsaslar müəyyən edildiyindən faktla bağlı Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 311.3.2-ci (təkrar rüşvət alma) cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam, hərtərəfli yoxlanılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir. Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən qanunazidd hallarla üzləşən vətəndaşlara müraciət edərək "961" nömrəli "Çağrı Mərkəzi" və ya Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161" nömrəli "Qaynar xətt" əlaqə mərkəzinə məlumat verməlırini xahiş edir.

✍ ***Hafta.az***

# İqtisadiyyat Nazirliyi sahibkarlarla birgə aztəminatlı ailələrə dəstək verib




**Koronavirus pandemiyasının dünya ölkələrini böhran və sosial-iqtisadi itkilərlə üz-üzə qoyduğu son dövrlər dövlətlər üçün ciddi bir sınağa çevrilib. Qlobal dünyanın bir parçası olan Azərbaycan belə mürəkkəb dövrdə öz vətəndaşlarını koronavirus pandemiyasından və onun yaratdığı fəsadlardan qorumaq üçün bütün mümkün tədbirləri görür. Bu barədə hafta.az-a İqtisadiyyat Nazirliyindən bildirilib.**

Dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək məqsədi ilə ölkəmizin hər yerində sosial həmrəylik aksiyaları davam edir. Bu aksiyaların məqsədi koronavirus pandemiyasının qarşısının alınması məqsədilə tətbiq edilmiş karantin rejimi dövründə aztəminatlı və digər həssas kateqoriyadan olan ailələri və onlara sosial yardım göstərmək istəyən şəxsləri bir araya gətirmək, bu işdə vətəndaş həmrəyliyini genişləndirməkdir. Sevindirici haldır ki, bu aksiyalarda dövlət qurumları ilə yanaşı cəmiyyətin üzvləri, eləcə də sosial məsuliyyətli sahibkarlar fəal iştirak edirlər.

Belə bir sosial təşəbbüslərdən biri də ötən aydan başlayaraq İqtisadiyyat Nazirliyinin dəstəyi ilə həyata keçirilir. Aztəminatlı ailələrin ən çox tələb olunan istehlak mallarına ehtiyacının ödənilməsi məqsədilə başlanmış sosial aksiyaya özəl biznesi təmsil edən sahibkarlar da yaxından dəstək göstəriblər.

Humanitar təşəbbüs çərçivəsində Nazirliyin təşkilatçılığı ilə həftəlik tələbat üçün nəzərdə tutulmuş ərzaq bağlamaları Bakıda və Abşeronda aztəminatlı ailələrə çatdırılıb. Aksiyanın reallaşdırılmasına qoşulan sahibkarlar bu təşəbbüsə hərtərəfli dəstək veriblər. Belə ki, "Azərmaş" ASC ərzaq bağlamalarının çatıdırılması üçün xüsusi avtomobillər ayırıb, Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü proqramının iştirakçıları isə ərzaq bağlamalarını karantin rejimi tələblərinə tam əməl etməklə aztəminatlı ailələrə çatdırmağa yardım ediblər. Sosial aksiya çərçivəsində 4 300-dən çox ərzaq bağlaması çatdırılıb. İqtisadiyyat Nazirliyi sosial həmrəylik və korporativ məsuliyyət nümayiş etdirən, adlarının çəkilməsinə lüzum görmədən bu təşəbbüsdə aktiv iştirak edən bütün sahibkarlara təşəkkür edir, bu cür humanitar addımların ölkəmizin fəal iqtisadi və sosial həyata qayıdacağı günü daha da yaxınlaşdıracağına töhfə verdiyini qeyd edir.

# Turizm potensialımızın tanıdılması onlayn platformalar vasitəsilə aparılır

***Azərbaycan Turizm Bürosu tərəfindən dünyada yaranmış cari vəziyyət nəzərə alınaraq, ölkəmiz haqqında məlumatlılığın saxlanılması və genişləndirilməsi məqsədilə keçirilən onlayn vebinarlar və görüşlər davam etdirilir.***



Dövlət Turizm Agentliyindən hafta.az-a bildirilib ki, may ayı ərzində Azərbaycan Turizm Bürosu tərəfindən Hindistan, Çin, Cənubi Koreya, BƏƏ, İsrail, Rusiya, Belarus, Ukrayna, Polşa, Almaniya, Avstriya, İsveçrə və bir sıra digər Avropa ölkələrindən olan turizm şirkətlərinin nümayəndələrinin iştirakı ilə 30 vebinar təşkil edilib. Beynəlxalq turizm şirkətləri üçün ölkənin turizm məhsulları, yeni marşrutlar, Bakı və regionlarda fəaliyyət göstərən hotellər, istirahət mərkəzləri barəsində məlumatların verildiyi vebinarlara 1300-dən çox iştirakçı qatılıb.

Azərbaycanın turizm imkanları haqqında olan vebinarlara yüksək maraq göstərildiyindən iyun ayı üçün yeni vebinarlar təşkil olunacaq.

Bundan əlavə, xarici bazarlarda olan turizm tərəfdaşları ilə 54 onlayn görüş təşkil olunub. Almaniya, Avstriya, İsveçrə, Böyük Britaniya, İtaliya, Niderland, Polşa, Hindistan, Çin, BƏƏ, Qətər, Səudiyyə Ərəbistanı, Oman, Rusiya, Ukrayna, Belarus, Qazaxıstan kimi 17 ölkədən olan tur operatorlar və turizm şirkətləri ilə dünya turizm sənayesində olan cari vəziyyət, gələcək əlaqələr, postpandemiya dövründə atılacaq ilkin addımlar və digər mövzular müzakirə olunub. Eyni zamanda, beynəlxalq turizm sənayesinin nümayəndələrinə Azərbaycanın təqdim etdiyi turizm imkanları barədə təlimlər keçirilməsi məqsədi daşıyan Azərbaycan haqqında "E-öyrənmə" onlayn təlim platforması (elearning.tourismboard.az) üzərindən fəaliyyət də davam etdirilir.

Platforma vasitəsilə Almaniya, Avstriya, Belçika, İtaliya, Niderland və bir çox Avropa ölkələri, BƏƏ, Səudiyyə Ərəbistanı kimi Körfəz ölkələri, Hindistan, Şri-lanka, Yaponiya kimi Asiya ölkələri, İsrail, Pakistan və bir sıra Yaxın Şərq ölkələri, Rusiya, Gürcüstan, İran və Azərbaycan da daxil olmaqla indiyədək 32 ölkədən 472 nəfər qeydiyyatdan keçərək "Azərbaycan turizmi üzrə ekspert" statusunu qazanıb və müvafiq sertifikat əldə ediblər.

Təlimlər Azərbaycan haqqında ümumi məlumat, müalicəvi turizm məhsulları, qastronomiya, şərab turları, alman irsi, yəhudi irsi, Azərbaycan təbiəti, Azərbaycan toy destinasiyası kimi, həmçinin ölkənin mədəni irsi kimi bir neçə moduldan ibarət olmaqla müxtəlif mövzuları əhatə edir.

# 1505 obyektdə sanitar-epidemioloji tələblər pozulub

**İqtisadiyyat Nazirliyinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi xüsusi karantin qaydalarına, Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyənləşdirdiyi zəruri sosial davranış qaydalarına və sanitar-epidemioloji tələblərə əməl edilməsinə nəzarət məqsədilə ticarət və xidmət obyektlərində keçirdiyi növbəti monitorinqlər zamanı da tələblərin pozulması faktları aşkar edilib.**

Nazirliyin mətbuat xidmətindən hafta.az-a bildirilib ki, iyunun 3-də keçirilmiş monitorinqlərdə Binəqədi rayonunda "Tər Gül" ticarət mərkəzində 4, Qaradağ rayonunda "Binə" ticarət mərkəzində 14, Nərimanov rayonunda "Gənclik Mall"-da 2, Nəsimi rayonunda "28 Mall"da 6 obyektdə, "SSİ retail" MMC-yə məxsus "New Yorker" mağazasında, Suraxanı rayonunda "Cənub Market"də və "Ekonom Market"də, Xəzər rayonunda "OBA Market"də, Mayis Ağayevə məxsus "Telefon aksesuarları" mağazasında, Elnur Quliyevin geyim mağazasında, Gəncə şəhərində Arif Əmirova, Elməddin Həsənova məxsus mağazalarda, "Sahil Dönər" ictimai iaşə obyektində, Mingəçevir şəhərində "Aptek Bəxtiyar"da, Abşeron rayonunda "Rahat Market"də və "Səma Market"də, Xətai Abbasova məxsus "Şərab evi"ndə, Cəlilabad rayonunda "Bizim İnşaat", "Grand mebel" və Rəsul Məmmədova məxsus mağazalarda, Müşviq Murtuzova məxsus "Oboy evi"ndə, İsmayıllı rayonunda Elvin Mursəliyevə məxsus "Kafe"də, "Bolluq Market" və "Bol Market"də, Qəbələ rayonunda "Çay evi"ndə, "Oğuz dönər" və "Halal dönər"də, Zahid Ağayevə, Turan Əzizliyə, Orxan Soltanova, İldırım Mahmudova, Eynulla Əhmədzadəyə, Fikrət Qaffarova məxsus mağazalarda, Xaçmaz rayonunda "Sədərək", "Cehizlik aləmi" mağazalarında, "Məxməri çay evi", "Lider dönər evi" ictimai iaşə obyektlərində və sair ticarət və xidmət obyektlərində ümumilikdə, monitorinq aparılan 373 obyektin 156-da zəruri sosial davranış qaydalarına və sanitar-epidemioloji tələblərə əməl olunmaması hallarına rast gəlinib. Qeyd edək ki, mayın 22-dən iyunun 3-dək 3158 sahibkarlıq subyektində monitorinq keçirilib və 1505 obyektdə zəruri sosial davranış qaydaları və sanitar-epidemioloji tələblərin pozulması halları aşkarlanıb.

# "Maddi durumum çox-çox pisdir"

**Pandemiya ilə əlaqədar toylara qoyulan qadağa davam etdikcə, müğənni və musiqiçilərin narahatlığı artır.**

Gəlirləri əsasən el şənliklərindən olan bəzi sənətçilər hesab edir ki, toylara müəyyən qaydalar çərçivəsində start verilə bilər. Bəs bir zamanların "Toylar kralı" Səməd Səmədov bu barədə nə düşünür?

Konkret.az-a açıqlamasında xalq artisti bütün diqqətin insanların sağlamlığına yönəlməsinin vacibliyini qeyd edib:

"Bu gün nəinki Azərbaycan, bütün dünya pandemiyadan əziyyət çəkir. Baxın, Türkiyədə hətta komendant saatı elan edilmişdi. Amma artıq bütün obyektlər açılır. Həmçinin, İtaliyada, digər Avropa ölkələrində də hər şey tədricən qaydasına düşür. Çünki camaat dövlətin qoyduğu qaydalara əməl edir. Bizdə isə vəziyyət fərqlidir. İnsanlar maskasız gəzir, qaydalara ciddi əməl etmək istəmir. Bax, elə ona görə də yaxın iki gündə camaatın çölə çıxması belə qadağan edildi". Toyların qadağan edilməsi ilə özünün də maddi vəziyyətinin ağırlaşdığını deyən Səməd Səmədov: "Şəxsən mənim də hazırda maddi durumum çox-çox pisdir. Heç bilmirəm ki, nə edəcəm. Çünki yeganə gəlirim toylardandır, əlavə qazanc yerim yoxdur.

Digər tərəfdən övladlarım və nəvələrim Moskvada yaşayan digər nəvəmi görmək üçün ora getmişdilər və ilişib qalıblar orada. Və mən yoldaşımla bağda tək qalmışıq", - bildirib. Buna baxmayraq, "Toylar kralı" həmkarlarını səbirli olmağa çağırıb: "Müğənni dostlarımın vəziyyətindən xəbərim var. Mən onları "kəmərlərini bərk bağlamağa" çağırıram. Səbr, səbr, səbr etmək lazımdır. Çünki toyu həmişə etmək olar. Əsas xalqın, insanların sağlamlığıdır".

# Heç bir şey etmədən bir milyon qazandı...

**Dünyaca məşhur modelyer Viktoria Bekhamın üzvü olduğu "Spice Girls" qrupu ötən il İngiltərədə turneyə çıxmışdı. Hafta.az axşam.az-a istinadən bildirir ki, sənətçi bu turnedə yer almasa da, oradan 1 milyon pound gəlir əldə edib.**



Konsertdə iştirak edən Emma Banton, Geri Horner, Mel Bi və Mel Sinin qurduğu "Spice Girls Limited" şirkətinin ötənilki ümumi gəliri isə 4,5 milyon pound olub. "The Sun" qəzeti isə Viktoriyanın qrupdan ayrılmasına rəğmən onlarla eyni qazanc əldə etməsini gülünc hesab edib.

# "Çelsi" Mario Paşaliçi 15 milyon avroya satıb

**"Çelsi" yarımmüdafiəçisi Mario Paşaliçi satıb. 25 yaşlı orta sahə oyunçusu "Atalanta"ya keçib.**

A seriyası klubu iki ildir icarə əsasında komandanın formasını geyinən Xorvatiya millisinin üzvünü birdəfəlik transfer edib. Bu keçid "Atalanta"ya 15 milyon avroya başa gəlib. Onun italyanlarla müqaviləsinin detalları hələlik açıqlanmayıb. Qeyd edək ki, Mario Paşaliç "Atalanta"nın heyətində 60 oyun keçirib, 12 qol vurub, 9 məhsuldar ötürmə verib.

# "Azercell" "Telegram Bot" - rəqəmsal dünyada yeni bələdçiniz!

**Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC abunəçilərinə ən yaxşı müştəri təcrübəsi bəxş etmək məqsədilə istifadə rahatlığı ilə seçilən innovativ "Telegram Bot" xidmətini yerli bazara gətirir.**




Rəqəmsal məhsullar portfelini daima zənginləşdirən Azercell, "Telegram Bot" çərçivəsində abunəçilərinə bir sıra əməliyyatları rahat şəkildə Müştəri Xidmətlərinə müraciət etmədən həyata keçirmək imkanı verir. Yeni servisdən yararalanmaq qaydası çox asandır: iOS və Android əməliyyat sistemlərini dəstəkləyən "Telegram" mobil tətbiqini Play Store və ya App Store-dan yüklədikdən sonra, <https://bit.ly/azercellbot> keçidinə daxil olaraq Start komandası seçilməlidir. Cavab olaraq Bot abunəçilərə 7 bölümdən ibarət menyu təqdim edəcək:

Mənim Nömrəm: Abunəçi Azercell-in "Kabinetim" tətbiqində qeydiyyatdan keçdiyi mobil nömrə və şifrəni daxil edərək, nömrəyə dair məlumatları əldə edə və müxtəlif əməliyyatlar həyata keçirə bilər ( cari tarif /internet paketinin idarəsi, balans haqqında məlumat).

Tariflər: Azercell-in mövcud tarif bazası haqqında detallı məlumat və qoşulma qaydaları. Xidmətlər: Azercell-in lokal və rominq xidmətləri haqqında detallı məlumat və qoşulma qaydaları.

İnternet: Azercell-in mövcud internet paketləri haqqında detallı məlumat və qoşulma qaydaları. Azercell+: Azercell-in yeni nəsil rəqəmsal həlləri haqqında detallı məlumat və qoşulma qaydaları.

Kampaniyalar: Azercell-in mövcud danışıq və internet kampaniyaları haqqında detallı məlumat və qoşulma qaydaları.

Əlaqə: Abunəçinin cari lokasiyasına əsaslanan "ən yaxın Azercell nümayəndəliyi"nin təyin edilməsi və ya Onlayn Müştəri Xidmətlərinə keçid.

Mobil operator yeni "Telegram Bot" xidmətinin funksional imkanlarını mütəmadi olaraq genişləndirəcəyini bəyan edərək, hər kəsi rəqəmsal dünyanı Azercell-lə kəşf etməyə çağırır!

MƏDƏNİYYƏT

# Arif Məlikovun Bakıda ikinci abidəsinin ucaldılacağı ərazi məlum olub



**Xalq artisti Arif Məlikovun Bakıda ikinci abidəsinin ucaldılacağı ərazi məlum olub. Bu barədə abidənin müəllifi, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, tanınmış heykəltəraş, Xalq rəssamı Ömər Eldarov məlumat verib.** Bildirib ki, abidənin ucaldılacağı məkan artıq qərarlaşdırılıb: "Arif Məlikovun birinci abidəsi Fəxri xiyabanda ucaldılıb. İkinci abidənin isə Milli Konservatoriyanın bağında ucaldılması planlaşdırılır. Yaxında abidənin layihəsini hazırlamağa başlayacağam. Abidə postamentlə birlikdə altı metrə yaxın olacaq. Arif Məlikovun abidəsini mərmərdən hazırlayacağam, digər abidəsindən fərqli, daha orijinal olması üçün çalışacağam. Abidənin bir il müddətinə hazırlanıb təhvil verilməsini planlaşdırırıq".

Ö.Eldarov həm də Müslüm Maqomayevin Dənizkənarı Milli Park ərazisində ucaldılacaq heykəli ilə bağlı işlərin gedişatından da danışıb: "Biz artıq heykəlin hazırlanmasına başlamışıq. Müslüm Maqomayevin abidəsi isə təxminən il yarımdan sonra təhvil verilə bilər".

ŞOU-BİZNES

# Sevgilisindən ayrılan aparıcı intihar etdi

**Hindistanın məşhur aparıcısı Chandana Ananthkrishna intihar edib. Hafta.az qafqazinfo-ya istinadən xəbər verir ki, 29 yaşlı TV ulduzu beşillik sevgilisi Dineşdən ayrıldıqdan sonra belə qərara gəlib.**



Chandana zəhər içməzdən əvvəl çəkdiyi videonu ailəsi, sevgilisi və bir neçə rəfiqəsinə göndərib. Aparıcı "Əgər ölsəm, sevgilim o vaxt özünü rahat hiss edəcək. Mənə belə demişdi", - deyə görüntülərdə bildirib.

Daha sonra xəstəxanaya aparılan Chandananın həyatını xilas etmək mümkün olmayıb. Polis Dineş və ailəsi haqqında intihara təşviq barəsində cinayət işi açıb.

İDMAN

# "Atletiko"nun futbolçusu həbs olundu




**İspaniyanın "Atletiko" (Madrid) kubunun futbolçusu Dieqo Kosta vergidən yayınma ittihamı ilə 6 ay müddətinə həbs edilib. Hücumçu həbs cəzası əvəzinə 36 min avro məbləğində cərimə ödəməyə razılıq verib.**

Bundan başqa, 31 yaşlı Dieqo Kosta İspaniya xəzinəsinə 1,1 milyion avroluq borcunu ödəyib. Qeyd edək ki, futbolçu 2014-cü ildə "Adidas" şirkəti ilə imzalanmış sponsorluq müqaviləsindən gəlirləri gizlətməkdə təqsirli bilinib.

# Raul baş məşqçi kimi "Şalke"yə qayıda bilər

**"Real"ın ikinci komandası "Kastilya"nın baş məşqçisi Raul Qonzales sabiq klubu "Şalke"yə qayıda bilər. "Kral klubu"nun əfsanəvi hücumçusunun Bundesliqa təmsilçisində baş məşqçi kimi fəaliyyət göstərmək ehtimalı yaranıb.**



Hazırkı çalışdırıcı Devid Vaqnerin fəaliyyətindən narazı qalan Gelzenkirxen klubu bir neçə mütəxəssislə danışıq aparır ki, onlardan biri də Rauldur. Onunla yanaşı, Ralf Ranqnik, Ralf Hazenhyuttl və Rojer Şmitd də namizədlər sırasındadır. Mövsümün sonunda "Şalke" adıçəkilən məşqçilərdən birinə həvalə oluna bilər. Qeyd edək ki, Raul Qonzales 2010-2012-ci illərdə "Şalke"nin formasını geyinib. 42 yaşlı mütəxəssis ötən ildən "Kastilya"nın sükanı arxasındadır.

MARAQ

# Arı südünün faydaları



**Arı südü, gündəlik həyatda istifadəsi çox olmasa da, kifayət qədər tanınmış və şəfalı bir qidadır.**

Arı südü bal arıları tərəfindən yaradılan sütlü bir ifrazatdır. Tipik olaraq təxminən 60% ilə 70% su, 12% ilə 15% zülal, 10% ilə 16% şəkər, 3% ilə 6% yağ və 2% ilə 3% vitamin, duz və amin turşusu ehtiva edir. Bu məhsul adını arıların, ana arıların inkişafı və qidalanması üçün istifadə etdikləri gerçəyindən götürməkdədir. Bəzi insanlar arı südünü dərman kimi istifadə edir. Arı südünü arı poleni və ya arı zəhəri ilə qarışdırmayın.

Arı südü qanın şəkərini nizamlaya bilir. Araşdırmaya görə, tip 2 diabetli 50 adama gündə üç dəfə bir plasebo və ya 1.000 milliqram arı südü verildi. Səkkiz həftəlik sınağın sonunda, qrup arı südü qan şəkərində əhəmiyyətli bir azalmaya oldu və plasebo verilənlərdə yüngül bir artım oldu.

Arı südünün içində bir sıra antioksidantlar vardır. Bu səbəblə, diyetinizə kafi miqdarda arı südü əlavə edərək, xərçəngləri əngəlləyə bilərsiniz. Arı südündəki vitaminlər və aktiv fermentlər, potensial bir iltihab əleyhinə agent halına gəlir.

Arı südündə olan antioksidantlar erkən yaşlanmağa səbəb olan sərbəst radikalları yox etmək üçün işləyə bilərlər. Antioksidantlar qırışıqlığı aradan qaldırır, dərinizə sağlam bir parlaqlıq verir, saç tökülməsini əngəlləyə bilər, bundan əlavə bəzi xroniki xəstəlikləri də önləyərək ömürünüzü uzada bilər.